**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# "AZƏRBAYCANIN İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİNİN BƏRPASI VƏ MÜƏSSİSƏLƏRİN TƏŞKİLİNİN İQTİSADİ ƏSASLARI"

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**Hüseynzadə Sərxoş Rəşid oğlu**

**BAKI – 2022**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**

**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh oğlu**

**__________________________ imza**

**“____” _______________ 2022-ci il**

# “AZƏRBAYCANIN İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİNİN BƏRPASI VƏ MÜƏSSİSƏLƏRİN TƏŞKİLİNİN İQTİSADİ ƏSASLARI”

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**İxtisasın şifri və adı:** 060406 - Statistika

**İxtisaslaşma:** Müəssisələrin statistikası

**Qrup:** 706

**Magistrant**
**Hüseynzadə Sərxoş Rəşid oğlu**

**___________________imza**

**Elmi rəhbər**
**i.ü.f.d., müəl. Abbasov Ceyhun Abbas oğlu**

**_____________________ imza**

**Proqram rəhbəri**
**i.ü.f.d., dos. Hümbətova Suqra İnqilab qızı**

**_____________________ imza**

**Kafedra müdiri**
**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi oğlu**

**_____________________ imza**

**BAKI - 2022**

## Elm andı

Mən, Hüseynzadə Sərxoş Rəşid oğlu and içirəm ki, “Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin bərpası və müəssisələrin təşkilinin iqtisadi əsasları” mövzusunda magistr dissertasiyasını elmi əxlaq normalarına və istinad qaydalarına tam riayət etməklə və istifadə etdiyim bütün mənbələri ədəbiyyat siyahısında əks etdirməklə yazmışam.

## AZƏRBAYCANIN İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİNİN BƏRPASI VƏ MÜƏSSİSƏLƏRİN TƏŞKİLİNİN İQTİSADİ ƏSASLARI

## XÜLASƏ

**Mövzunun aktuallığı: Qarşıda duran ən vacib məsələ işğaldan azad olunmuş ərazilərin bərpa edilərək, hər tərəfli dirçəldilməsidir. Mövcud vəziyyəti, iqtisadi və təşkilati aspektlərin əsaslandırılması və perspektivli sahələrin müəyyən edilməsi, onun təkmilləşdirilməsi bu ərazilərin sürətli bərpasına və inkişaf etdirilməsinə səbəb olacaqdır. İnkişaf etmiş bir iqtisadiyyata malik olacaq Qarabağ iqtisadi rayonu isə xarici təsirlərə qarşı daha dayanıqlı formaya gələcək, rəqabət qabiliyyətli güclənəcəkdir.**

**Tədqiqat məqsədləri: Dissertasiya işinin əsas məqsədi işğaldan azad olunmuş ərazilərin bərpası və burada yeni müəssisələrin təşkilinin iqtisadi əsasları kimi vacib fenomenləri nəzərdən keçirməkdir.**

**Tədqiqat metodları: Tədqiqat prosesində emprik, statistik, müqayisəli təhlil və sintez metodlarından geniş istifadə edilmişdir.**

**Tədqiqatın informasiya bazası: Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, Azərbaycan Respublikası Nazirliklərinin qərarları, Milli Məclisin və Nazirlər Kabinetinin müvafiq qərarları, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin illik hesabatları, mövzu üzrə yerli və xarici alimlərin əsərləri, yerli və xarici internet resurslarında mövzuya uyğun mövcud informasiyalar təşkil edir.**

**Tədqiqatın məhdudiyyətləri: Tədqiqatın həyata keçirilməsinə əngəl olan nəzəri-metodoloji çatışmazlıqlar, yetərli informasiya bazasının olmamağı.**

**Tədqiqatın elmi yeniliyi və praktiki nəticələri: İşğaldan azad olunmuş ərazilərin bərpası və potensiala uyğun yeni müəssisələrin formalaşdırılmasının əsas istiqamətlərinin təşkili və onun idarə edilməsinin metodoloji prinsipləri əsaslandırılmış, azad olunmuş ərazilərin bərpası və müəssisəslərin təşkilində dövlət dəstəyinin önəmliliyi əks etdirilmiş və bunun təsiri nəticəsində regionda perspektivin yüksəldilməsi təhlil edilmişdir.**

***Açar sözlər: İşğaldan azad olunmuş ərazilər, 44 günlük müharibə, bərpa, müəssisələrin təşkili.***

## REHABILITATION OF THE LIBERATED TERRITORIES OF AZERBAIJAN AND THE ECONOMIC BASIS OF ORGANIZATION OF ENTERPRISES


### SUMMARY

**Relevance of the topic: The most important issue ahead is the restoration and comprehensive revival of the liberated territories. Substantiation of the current situation, economic and organizational aspects and identification of promising areas, its improvement will lead to the rapid restoration and development of these areas. The Karabakh economic region, which will have a developed economy, will become more resistant to external influences and will become more competitive.**

**Objectives of the research: The main purpose of the dissertation is to consider important phenomena as the restoration of the liberated territories and the economic basis for the establishment of new enterprises here.**

**Research methods: Empirical, statistical, comparative analysis and synthesis methods were widely used in the research process.**

**Research database: decrees and orders of the President of the Republic of Azerbaijan, decisions of the Ministries of the Republic of Azerbaijan, relevant decisions of the Milli Majlis and the Cabinet of Ministers, annual reports of the State Statistics Committee of the Republic of Azerbaijan, works of local and foreign scientists, local and foreign Internet resources is.**

**Limitations of the research: Theoretical and methodological shortcomings that hinder the implementation of the research, lack of sufficient information base.**

**Scientific novelty and practical results of the research: Methodological principles of organization and management of the main directions of the restoration of the liberated territories and formation of new enterprises in accordance with the potential are substantiated, the importance of state support in the restoration of the liberated territories and the establishment of enterprises is analyzed. .**



***Keywords: Liberated territories, 44 days of war, restoration, organization of enterprises.***

## İXTİSARLAR

| | |
|---|---|
| **ABŞ** | Amerika Birləşmiş Ştatları |
| **ÜDM** | Ümumi Daxili Məhsul |

MÜNDƏRİCAT

**GİRİŞ ........................................................ 8**

**I FƏSİL. İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİN BƏRPASININ NƏZƏRİ ASPEKTLƏRİ VƏ İQTİSADİ ƏSASLARI ........................ 12**

1.1. İşğaldan azad edilmiş ərazilərin bərpa potensialının nəzəri metodoloji əsasları ........................................................ 12

1.2. İşğaldan azad edilmiş ərazilərin bərpası üzrə mövcud problemlər və onun həlli yolları ........................................................ 18

1.3. Müəssisələrin növləri, təşkilinin prinsipləri və əhəmiyyəti. ........................ 24

**II FƏSİL. İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ MÜƏSSİSƏLƏRİN TƏŞKİLİ ÜZRƏ PERSPEKTİVLƏRİN TƏHLİLİ ....... 32**

2.1.Yeni müəssisələrin təşkil edilməsinin hüquqi və institusional mexanizmləri .. 32

2.2. İşğaldan azad olunmuş ərazilərdə sosial-iqtisadi inkişafın artırılması istiqamətində müəssisələrin yaradılması ........................................ 38

2.3. Müəssisələrin təşkili üzrə mövcud xarici təcrübə ........................................ 43

**III FƏSİL. İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ MÜƏSSİSƏLƏRİN BƏRPASI VƏ YENİDƏN TƏŞKİLİNİN ƏSAS İSTİQAMƏTLƏRİ ........................................................ 51**

3.1. İşğaldan azad edilmiş ərazilərin müəssisələri üzrə iqtisadi dəstək sisteminin təkmilləşdirilməsi ........................................................ 51

3.2. İşğaldan azad edilmiş ərazilərdə investisiya proseslərinin stimullaşdırılması mexanizmləri ........................................................ 55

3.3. İşğaldan azad edilmiş ərazilərdə mövcud risklər üzrə müəssisələrin təşkili ... 61

**NƏTİCƏ VƏ TƏKLİFLƏR ........................................................ 66**

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI ........................................ 70**

Cədvəllərin siyahısı ........................................................ 74

# GİRİŞ

**Mövzunun aktuallığı:** Ötən əsrin sonlarında tüğyan edən beynəlxalq və regional dəyişikliklər mənfur düşmənlərimizin uzun tarixi köklərə söykənən əsassız ərazi iddialarını yenidən gündəmə gətirmişdir. Torpaqlarımızın xüsusi amansızlıqla işğalı nəticəsində Azərbaycan Respublikası ərazisinin 20 faizdən çoxu üzərində faktiki olaraq nəzarəti itirdi. İşğal olunmuş torpaqlarda heç bir hüquqi qanunlar fəaliyyət göstərmirdi.

Uzun illərdir baxımsızlıq hökm sürən bu ərazilərin canlandırılması həm dövlətin, həm də sahibkarların qarşısında böyük vəzifə və məsuliyyət qoymuş olur, işğaldan azad edilən torpaqlarımızda iqtisadi fəaliyyətin bərpa olunması zərurətə çevrilir.

Hal-hazırda bazar iqtisadiyyatının hökm sürdüyü bir zamanda dağıdılmış ərazilərin bərpası məhz iqtisadi sahələrin inkişafı, yeni müəssisələrin salınması ilə mümkündür.

Ötən əsrin sonlarında müstəqillik əldə olunmasına baxmayaraq, ölkənin ən dilbər və böyük regionlarından birinin işğalı bütün ölkənin inkişaf tendensiyasına mənfi təsir göstərirdi. Uzun illərdən sonra ali baş komandanın rəhbərliyi ilə müzəffər ordumuz tərəfindən aparılan uğurlu döyüşlər, ərazi bütövlüyümüzü bərpa etməyə imkan yaratdı.

Bundan sonrakı dövrdə qarşıda duran ən vacib məsələ işğaldan azad olunmuş ərazilərin bərpa edilərək, hər tərəfli dirçəldilməsidir. Bütün yuxarıda deyilənlərə əsasən iddia etmək olar ki, mövcud vəziyyəti, iqtisadi və təşkilati aspektlərin əsaslandırılması və perspektivli sahələrin müəyyən edilməsi, onun təkmilləşdirilməsi bu ərazilərin sürətli bərpasına və inkişaf etdirilməsinə səbəb olacaqdır.

Bu sadalanan istiqamətləri əsas götürərək dissertasiyanın mövzusunun aktual olduğunu, daha da öyrənilməsi və təkmilləşdirilməsinə ehtiyac olduğunu qeyd edə bilərik.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi:** İqtisadi ədəbiyyatlarda və elmi tədqiqatlarda ərazilərin bərpası və müəssisələrin təşkilinin iqtisadi əsasları geniş şəkildə öyrənilmişdir. Bərpa fəaliyyətinin təşkili, onun investisiya təminatı, müəssisələrin təşkili ilə bağlı vergi yükünün azaldılması, kadr təminatı və s. məsələlər ən aktual tədqiqat obyektinə çevrilmiş və önəmli tövsiyələr işlənilməkdədir.

Bərpa və müəssisələrin fəaliyyətinin təşkili və idarə edilməsinin təşkilati, sosial-iqtisadi, hüquqi aspektləri Q.Çaxmaqlı, F.İsmayılov, L.Rəşidov və başqalarının əsərlərində tədqiq olunmuşdur.

Bərpa və müəssisələrin fəaliyyətinin təşkili, sosial-iqtisadi səmərəliliyi, risk-menecment məsələləri, biznes prosesin tənzimlənməsi, risk idarə edilməsi məsələləri xarici ölkə alimlərindən: Lojkin O.B., Qribov V.D., Volgin V.V., Rıbak O, Volkov O. İ.və başqalarının əsərlərində müxtəlif səpkidə şərh edilmişdir.

**Tədqiqatın məqsədi və vəzifələri:** Dissertasiya işinin əsas məqsədi işğaldan azad olunmuş ərazilərin bərpası və burada yeni müəssisələrin təşkilinin iqtisadi əsasları kimi vacib fenomenləri nəzərdən keçirməkdir.

Dissertasiyanın məqsədinə çatmaq üçün tədqiqat məntiqi və iş quruluşunu müəyyənləşdirən vəzifələr qoyuldu:

- Bazar proseslərinin təkamülünün öyrənilməsi;
- Bərpa və yenidənqurmanın mahiyyətinin, məzmununun və xüsusiyyətlərinin açılması;
- İşğaldan azad edilmiş ərazilərin inkişaf istiqamətlərinin qiymətləndirilməsi;
- Bərpa və yenidənqurma ilə bağlı səmərəliliyin tədqiqi üçün metod və yanaşmaların işlənib hazırlanması;
- Bu ərazilərdə yeni müəssisələrə olan ehtiyacları müəyyən edən amillərin qruplaşdırılması;
- Yaradılmış müəssisələrin təkmilləşdirilməsi məqsədilə inkişaf xüsusiyyətlərinin müəyyən edilməsi;

**Tədqiqatın predmeti və obyekti:** Dissertasiya işinin predmetini işğaldan azad olunmuş ərazilərin bərpası və müəssisələrin təşkili istiqamətlərinin

təkmilləşməsinin təmin edilməsi, mövcud durumunun düzgün təhlil olunması, eləcə də təkmilləşmə yönlərinin müəyyən olunması prosesləri təşkil edir.

Dissertasiya işinin obyektini isə işğaldan azad olunmuş ərazilərin bərpası və müəssisələrin formalaşdırılmasının inkişaf xüsusiyyətləri, onun nəticələrinin araşdırılması və perspektiv istiqamətləri məsələləri təşkil edir.

**Tədqiqatın metodları:** Tədqiqat prosesində emprik, statistik, müqayisəli təhlil və sintez metodlarından geniş istifadə edilmişdir.

**Tətqiqatın informasiya bazasını**: Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, Azərbaycan Respublikası Nazirliklərinin qərarları, Milli Məclisin və Nazirlər Kabinetinin müvafiq qərarları, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin illik hesabatları, mövzu üzrə yerli və xarici alimlərin əsərləri, yerli və xarici internet resurslarında mövzuya uyğun mövcud informasiyalar təşkil edir.

**Tədqiqatın məhdudiyyətləri:** Tədqiqatın həyata keçirilməsinə əngəl olan nəzəri-metodoloji çatışmazlıqlar, yetərli informasiya bazasının olmamağı və s.

**Tədqiqatın elmi yeniliyi:** Dissertasiya işinin elmi yeniliyi və praktiki əhəmiyyəti aşağıdakılardan ibarətdir:

- İşğaldan azad olunmuş ərazilərin bərpası və potensiala uyğun yeni müəssisələrin formalaşdırılmasının əsas istiqamətlərinin təşkili və onun idarə edilməsinin metodoloji prinsipləri əsaslandırılır;
- Bərpa potensialının qiymətləndirilməsinin və formalaşmasının elmi əsaslarının inkişafı və formalaşması qanunauyğunluqları üzrə təkliflər verilir;
- İşğaldan azad olunmuş ərazilərə qayıdacaq olan əhalinin gəlirlərinin artması istiqamətində görülən tədbirlərin müsbət nəticələri müəyyən edilmişdir;
- Müəssisələrin formalaşdırılmasının təkmilləşdirilməsi məqsədilə inkişaf xüsusiyyətləri müəyyən edilmişdir;
- Bu tədqiqat sayəsində işğaldan azad olunmuş ərazilərin bərpası üzrə mövcud durum araşdırılmış və onun sosial-iqtisadi nəticələri barədə göstəricilər göstərilmişdir;

• İşğaldan azad olunmuş ərazilərin bərpası və müəssisəslərin təşkilində dövlət dəstəyinin önəmliliyi əks etdirilmiş və bunun təsiri nəticəsində regionda perspektivin yüksəldilməsi təhlil edilmişdir;

• Bərpa fəaliyyətinin səmərəliliyinin birgə və ümumiləşdirilmiş parametrləri təhlil edilmişdir.

**Nəticələrin praktiki əhəmiyyəti və tətbiq sahələri:** Təqdiqat nəticəsində əldə olnmuş nəticələrdən və eyni zamanda irəli sürülən təkliflərdən tədqiq edilməsindən aydın olur ki, ərazi üzrə layihələrinin hazırlanması yerli problemlərin həlli mühitin inkişafına istiqamətlənmişdir.

# I FƏSİL. İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİN BƏRPASININ NƏZƏRİ ASPEKTLƏRİ VƏ İQTİSADİ ƏSASLARI

## 1.1. İşğaldan azad edilmiş ərazilərin bərpa potensialının nəzəri metodoloji əsasları

Xalqımızın taleyinə XX əsrin ən amansız münaqişələrdən biri olan Ermənistan-Azərbaycan münaqişəsi qismət olmuşdur. Bu faciənin nəticələri milyonlarla azərbaycanlının həyatını tamamilə dəyişmiş, hər kəsin ürəyinə sağalmaz zərbə vurmuşdur.

Tarix boyu yaranmış əsassız iddialarına sadiq qalan mənfur düşmən 1980-ci illərin sonlarından başlayaraq torpaqlarımıza açıq ərazi iddiaları irəli sürərək etnik zəmində təxribatlar törətmiş, terror aktları həyata keçirmişdir.

O zamankı Sovet İttifaqının, Ermənistan SSR rəhbərliyinin və xaricdəki erməni diasporlarında təmsil olunan ermənilərin SSRİ-nin mərkəzi hakimiyyətinin zəifləməsindən iştahlanaraq, 1923-cü ildən Azərbaycan SSR tərkibində yaradılmış olan Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) mənsub olduğu Azərbaycandan ayrılaraq Ermənistan SSR-ə birləşdirilməsi istiqamətində çirkin fəaliyyətlərə başladılar.

1988-ci ilə qədər əzəli torpaqlarımız olan bütün Ermənistanın ərazisində azərbaycanlılar kompakt şəkildə yaşayırdılar. Lakin Dağlıq Qarabağ ərazisində yaşayan ermənilərdən fərqli olaraq, Sovet hökuməti azərbaycanlıların kompakt yaşadıqları ərazilərə Ermənistan SSR tərkibində muxtariyyət statusu verməmişdir, bundan əlavə olaraq mütəmadi şəkildə həm yerlilərimizin hüquqları pozulur, onların dədə-baba yurdlarından qovulmasına çalışılır, etnik cəhətdən sıxışdırılırdılar (Çaxmaqlı Q. 2009, s. 44).

Azərbaycan Respublikası 1989-1993-cü illərdə davam edən birinci Qarabağ müharibəsi nəticəsində ərazilərinin 20%-ni itirmişdi. 1994-cü ildə Bişkek Protokolu imzalanmış və bununla da atəşkəs elan edilmişdir.

Protokoldan sonra Ermənistan Respublikası ilə torpaqlarımızın sülh yolu vasitəsilə qaytarılması üçün müxtəlif beynəlxalq strukturlar çərçivəsində uzunmüddətli diplomatik danışıqlar aparılmışdır. BMT Təhlükəsizlik Şurası tərəfindən işğalçı qüvvələrin ərazilərdən qeyd-şərtsiz çıxarılmasını təmin edən qərarlar verilmişdir. Lakin bütün bunlara baxmayaraq münaqişə həll olunmadan illərlə davam etmişdir.

2020-ci ilin iyul ayında Ermənistan növbəti dəfə Azərbaycanın Tovuz istiqamətində dövlət sərhədinin pozulmasına cəhd etdiyi hərbi təxribat törətdi. Öz iyrənc siyasətlərini heç zaman dayandırmayan Ermənistan dövlətinin təxribatlar törətməkdə əsas məqsədi Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı məsələsini arxa plana keçirmək, regionda yeni gərginlik ocağı yaratmaq, üçüncü dövlətləri münaqişəyə cəlb etmək və Azərbaycanın strateji infrastrukturuna ziyan vurmaq idi.

Lakin hər zamanki kimi ordumuzun ayıq-sayıqlığı, mərdliyi, qorxmazlığı nəticəsində təxribat nəyinki uğurla dəf edildi, həmçinin düşmən böyük itkilər verərək geri qaçmağa məcbur oldu (https://azerbaijan.az/related-information/126. 04.11.2022).

Möhkəmlənmiş Azərbaycanın hücumları hər dəfə dəf etməsindən, layiqincə cavab verə bilməsindən nəticə çıxartmayan Ermənistan ordusu 2020-ci il sentyabr ayının sonlarında növbəti hərbi təcavüzə cəhd etdilər. Buna cavab olaraq, uzun illər torpaqlarımızın işğalını dayandırmaq üçün Azərbaycan ordusu əks hücuma keçdi. 44 günlük Vətən Müharibəsi nəticəsində Ermənistan ordusu darmadağın edilərək, işğal olunmuş ərazilərimiz azad olundu.

Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə müzəffər Azərbaycan ordusunun həyata keçirdiyi "Dəmir yumruq" əməliyyatı xalqımızın tarixinə qızıl hərflərlə yazılaraq, Azərbaycanın böyük qələbəsi ilə başa çatdı.

Sonda biabırçı şəkildə məğlub olan düşmən 10 noyabr 2020-ci ildə kaputulyasiya aktına imza çəkdi. Azərbaycan, Rusiya və Ermənistan dövlət

başçılarının imzaladığı üç tərəfli bəyanatla münaqişənin sona çatması, yeni əlaqələrin yaradılması və bərpa prosesi qeydə alındı.

Uzun illər davam edən işğal zamanı Ermənistan tərəfi əzəli Azərbaycan torpaqlarında milli-mədəni irsi talan edərək dağıtmış, şəhərləri və digər yaşayış məntəqələrini yerlə yeksan etmiş, bölgəyə böyük ekoloji ziyan vurmuşdur (https://www.virtualkarabakh.az. 15.11.2021).

Bu illər ərzində düşmən tərəfindən Azərbaycan torpaqlarına yüz minlərlə mina və partlayıcı maddələr yerləşdirilib. 10 noyabr üç tərəfli bəyanatına uyğun olaraq Ermənistan işğal və münaqişə zamanı Azərbaycana qarşı törətdiyi çoxsaylı hərbi cinayətlərə görə hüquqi məsuliyyətdən yayına bilməyəcək, qırğın və soyqırım aktları, terror fəaliyyətləri, vandalizm nəticəsində Azərbaycana dəymiş ağır sosial-iqtisadi ziyana görə kompensasiya ödəməyə məcbur olacaqdır.

Tarixi ədalətə uyğun olaraq əzəli torpaqların qaytarılmasından sonra qarşıda duran ən böyük vəzifə bu əraziləri bərpa edərək, yerli sakinlərə, bütün ölkə vətəndaşlarına və turistlərə qovuşdurmaqdır.

**Cədvəl 1: 2021-ci ilin əvvəlinə işğaldan azad edilmiş iqtisadi və inzibati rayonlarının ərazisi və əhalisi**

| İqtisadi və inzibati şəhər və rayonların adları | Ərazi, min kv.km[1)] | Əhalinin sayı, min nəfər | Əhalinin sıxlığı (1 kv. km, nəfər) |
|---|---|---|---|
| **Azərbaycan Respublikası** | **86,6** | **10119,1** | **117** |
| **Qarabağ iqtisadi rayonu - cəmi** | **8,99** | **904,5** | **101** |
| o cümlədən: | | | |
| Xankəndi şəhəri | 0,01 | 55,9 | 6988 |
| Ağcabədi rayonu | 1,76 | 137,5 | 78 |
| Ağdam rayonu | 1,15 | 205,1 | 178 |
| Bərdə rayonu | 0,95 | 158,2 | 167 |
| Füzuli rayonu | 1,39 | 134,7 | 97 |
| Xocalı rayonu | 1,00 | 29,0 | 29 |
| Xocavənd rayonu | 1,46 | 44,2 | 30 |
| Şuşa rayonu | 0,31 | 34,9 | 113 |
| Tərtər rayonu | 0,96 | 105,0 | 109 |
| **Şərqi Zəngəzur iqtisadi rayonu-cəmi** | **7,47** | **343,5** | **46** |
| Cəbrayıl rayonu | 1,05 | 82,2 | 78 |
| Kəlbəcər rayonu | 3,05 | 94,7 | 31 |
| Qubadlı rayonu | 0,80 | 41,9 | 52 |
| Laçın rayonu | 1,84 | 79,2 | 43 |
| Zəngilan rayonu | 0,73 | 45,5 | 62 |

**Mənbə:** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi internet saytı. https://www.stat.gov.az/

**Qeyd:** 07 iyul 2021-ci il tarixli Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə dəyişiklik edilmişdir.

Qarşıda durmuş olan bu vəzifənin uğurla həlli, ilk növbədə Ermənistan hərbi təcavüz nəticəsində iqtisadiyyatımıza vurulmuş olan zərbənin, işğal altında olan bölgələrimizə dəyən zərərin mövcud iqtisadi identifikasiyaya uyğun olaraq potensialın qiymətləndirilməsi, resurslar və imkanların müəyyənləşdirilməsi iqtisadi mexanizmlərin səmərəli həyata keçirilməsi üçün lazım olan inkişafın prioritet istiqamətlərinin müəyyən edilməsini vacib edir.

Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycanın itkiləri həm iqtisadi, həm mənəvi və həm də maddi cəhətdən olmuşdur. Bir zamanların cənnət diyarı sayılan bu ərazilər xarabalığa çevrilmişdir (İsmayılov F.2016, s.42).

**Cədvəl 2: Uzun illər erməni işğalı nəticəsində dilbər guşələrimizdə dağıdılan obyektlərin statistikası**

| |
|---|
| ❖ Yaşayış məntəqələri – 900 |
| ❖ Sənaye, kənd təsərrüfatı və digər müəssisələr-2400 |
| ❖ Evlər – 130939 |
| ❖ İctimai binalar – 7000 |
| ❖ Məktəblər – 1025 |
| ❖ Uşaq bağçaları – 855 |
| ❖ Səhiyyə ocaqları – 798 |
| ❖ Kitabxanalar – 927 |
| ❖ Məscidlər və məbədlər – 53 |
| ❖ Tarixi abidələr, muzeylər və yerlər – 473 |
| ❖ Muzey eksponatları – 40000 |
| ❖ Sənaye və kənd təsərrüfatı obyektləri – 2389 |
| ❖ Avtomobil yolları - 5198 km |
| ❖ Körpülər - 348 |
| ❖ Su xətləri - 7568 km |
| ❖ Qaz xətləri - 2000 km |
| ❖ Elektrik xətləri - 76940 km |
| ❖ Meşələr - 280000 ha |
| ❖ Məhsuldar torpaqlar - 1000000 ha |
| ❖ İrriqasiya sistemləri - 1200 km |
| ❖ Dəmir yolu-286 km |
| ❖ Dəmir yolu körpüsü-116 km |
| ❖ Su anbarı-224 |

**Mənbə:** http://www.xocalininsesi.info/

Hələ 2014-cü ildə Azərbaycan Respublikası prezidentinin sərəncamı ilə işğal dövründə dəyən ziyanın hesablanması üçün işçi qrupu yaradılmışdır. Bu işçi qrupu tərəfindən müxtəlif mənbələrdən əldə olunmuş məlumatlar əsasında hesablamalar aparılmışdır.

İşğal illərində fərqli zamanlarda aparılmış həsablamalar nəticəsində müəyyən olunan maddi ziyan 818 milyard 880 milyon ABŞ dolları həcmində qiymətləndirilmişdir. Lakin bu qiymətləndirmə mənəvi dəyəri ifadə edə bilmir. Qədim, zəngin tarixə, istedadlı şəxsiyyətlərə malik diyarlar tamamilə viran edilmiş, əhali isə müxtəlif amansızlıqlara məruz qoyulmuşdur (https://modern.az. 29.10.2021).

Dünya təcrübəsi göstərir ki, müharibədən sonrakı yenidənqurma, tikinti və ümumilikdə bərpa işlərinin aparılması müəyyən resurslar və vaxt tələb edir. Hal-hazırda hər kəsin görmək və gəzmək üçün səbrsizləndiyi bu ərazilərin qarşısında uzun müddətli, mərhələli bərpa layihələrinin həyata keçirilməsi durur. Bu prosedur qaçılmaz, vacib və zəruridir.

İşğaldan azad edilmiş ərazilərdə bərpa, yenidənqurma, yeni infrastrukturun yaradılması istiqamətində görüləcək işlər təxirə salınmazlıq ardıcıllığı ilə həyata keçirilməkdədir. İlk növbədə, təbii ki, bu ərazilərdə tikinti və yenidənqurma fəaliyyətlərinin təhlükəsizliyi üçün minalardan tamamilə təmizlənməsi proseduru baş verməlidir.

Bundan sonrakı mərhələlərdə isə işğaldan azad edilmiş ərazilərin potensialına və yerli əhalinin əmək fəaliyyətlərinə uyğun olaraq iqtisadiyyatın müxtəlif sahələrinin inkişafı üzrə proqram və layihələrin növbəli şəkildə icrası aparılmalıdır. Bu sahələrə həm kənd təsərrüfatı ilə bağlı yeni fəaliyyətlər, müxtəlif xidmət sahələri, ticarət, tikinti, nəqliyyat və s. istiqamətlər üzrə fəaliyyətlərin başlanması və inkişafı vacib məsələlərdəndir.

Eyni zamanda, uzun işğal illərinin nəticəsi olan ziyanın və itkilərin qarşı tərəfdən ödənməsi üçün bu istiqamətdə zəruri işlər görülməlidir. Bunun üçün dünya hüquqi müstəvisi üzrə bütün prosedurların həyata keçirilməsinə çalışılmalıdır (https://president.az .10.11.2021).

Bərpa və yenidənqurma üçün lazım olan investisiya xərcləri də dəqiq müəyyən edilməlidir. Təbii ki, istehsal sahələrinin inkişafı, daha sonra xidmət sürəti dinamik artdıqca ticarət tempi də artacaqdır. Bu göstərici artdıqca əhali üçün yeni iş yerlərinin yaradılmasına və perspektivdə iqtisadiyyatın dinamik inkişafına səbəb olacaqdır. Məcburi köçkün vətəndaşlarımızın geri qayıtması baxımından məşğulluğun təmin edilməsi məsələlərinin mövcud layihələr üzrə nəzərdən keçirilməsi vacib suallardan biridir.

İşğaldan azad olunandan dərhal sonra yenidənqurma siyasətinə start verilmişdir. 2021-ci ilin dövlət büdcəsi bu istiqamətdə yönəldilmişdir. Bu tendensiya yaxın illərdə də davam etdirilmiş olacaqdır. Beləki 2022-2025-ci illərdə dövlət büdcəsi üçün xərclərin əsas prioritetlərindən biri müharibənin nəticələrinin aradan qaldırılması, işğaldan azad edilmiş ərazilərin bərpası, yenidən qurulması, ölkə iqtisadiyyatına reinteqrasiyası olacaq (https://www.karabakh.center/az .15.11.2022).

Bu ildən başlayaraq sonrakı illərdə də bu tədbirlərin daha geniş miqyasda davam etdirilməsi, geri qayıdacaq vətəndaşların yaşaması və sahibkarlıq fəaliyyəti üçün şərait yaradılması, həmin ərazilərdə iqtisadi fəallığın bərpası istiqamətində tədbirlərin maliyyələşdirilməsinə ehtiyac var.

Bununla yanaşı, dövlət vəsaiti hesabına mülki əhaliyə, dövlət əmlakına, infrastruktur obyektlərinə dəymiş ziyanın ödənilməsi, yeni müəssisələrin istifadəyə verilməsi, xarici və yerli turistlərin diqqətinin bu ərazilərə və illərlə baş verən vəhşiliklərə yönəldilməsi həm dövlət, həm də qeyri dövlət təşkilatlarının mühim vəzifələrindəndir.

İşğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması, soydaşlarımızın öz doğma torpaqlarına qayıtması kimi şərəfli vəzifənin icrası 2022-ci ildə 2021-ci ilə uyğun olaraq davam etdiriləcək. Növbəti ilin dövlət büdcəsindən bu məqsədlər üçün 2,2 milyard manat vəsait ayrılması nəzərdə tutulmuşdur.

Hazırda dövlətin qarşısında işğaldan azad edilmiş  regionların sosial-iqtisadi strategiyasını, diversifikasiya strategiyasını, likvidlik risklərinin idarə edilməsini,

daxili və xarici əlaqələri üzrə perspektiv planların hazırlanması məsələsi durmaqdadır.

## 1.2. İşğaldan azad edilmiş ərazilərin bərpası üzrə mövcud problemlər və onun həlli yolları

Ərazilərin uzun müddətli işğalı Ermənistan üçün ciddi iqtisadi səmərə verməmişdir. Buranın yeraltı və yerüstü təbii sərvətlərlə, əlvan metallarla, filizlər, qızıl, civə, xromit, perlit, əhəng, mərmər, əqiq, mineral sular və digər çox yayılmış minerallar, eləcə də geniş kurort və rekreasiya potensialı olmasına baxmayaraq işğalçılar mövcüd sərvətlərdən tam istifadə edə bilmirdilər.

Əzəli sahiblərin geri dönüşü ilə 30 ildən çox təcavüzə məruz olan azad edilmiş ərazilərdə "tikinti bumu" başlamışdır. Torpaqlarımızın azad edilməsi nəticəsində qeyri-neft sektorunun inkişafı üzrə proqnozlara yenidən baxılıb. Beləliklə aydın məsələdir ki, işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması ümumilikdə ölkə iqtisadiyyatının əsaslı dəyişikliklərinə gətirib çıxardacaqdır. Çünki ordumuzun bu qələbəsi qeyri-neft sektorunun da artımını stimullaşdıracaqdır (UNEC ekspert, 2020-2021. s.14).

İlkin hesablamalar göstərir ki, növbəti illərdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında əsas sahələrin ümumi istehsalı 2 milyard manatdan artıq ola bilər.

Hətta Qarabağ problemi mövcud olanda belə Azərbaycan dünya ölkələri arasında ən cəlbedici investisiya məkanlarından biri idi. Ümumiyyətlə, 1995-2018-ci illər üçün Azərbaycanda orta hesabla 140 milyard dollar xarici investisiyalar cəlb edilmişdir. Bu investisiyaların 30 faizini Azərbaycan hökuməti, eləcə də ölkə daxilində fəaliyyət göstərən müxtəlif özəl təşkilatlara beynəlxalq maliyyə institutlarından verilən kreditlər təşkil edir. İnvestisiyaların digər hissəsi birbaşa xarici investisiya kimi qeydə alınmışdır.

Hal-hazırda regionda baş verən dəyişikliklər nəticəsində Azərbaycanın investisiya cəlbediciliyi daha da artmışdır. Qələbə ilə nəticələnən müharibə

bitdikdən dərhal sonra Türkiyə, İtaliya, İsrail kimi ölkələrdən işğaldan azad edilmiş regionların bərpasına investisiya qoyuluşları ilə bağlı təkliflər vermişdilər (https://azerbaijan.az/ 16.11.2021).

İşğaldan azad edilmiş ərazilərdə bərpa və rekonstruktiv işlərin aparılması üçün mövcud problemləri və qarşıda duran fəaliyyətləri aşağıdakı kimi xarakterizə etmək mümkündür:

- İşğaldan azad edilmiş bölgələrdə baş verə biləcək hərbi əməliyyatların və təhdidlərin aradan qaldırılmasına çalışmaq, bu istiqamətdə tam dövlət tədbirləri və təminatları olmalıdır;
- İşğaldan azad olunmuş bölgələrin yenidən qurulması üçün atılacaq addımlar planlı və mərhələli keçirilməlidir;
- Azərbaycan müharibədən sonrakı dövrdə masa arxasında siyasi mübarizə ilə yanaşı, həm də strateji iqtisadi inkişaf planını hazırlamalıdır;
- İlk növbədə, regionun infrastrukturunu qurmaq lazımdır, əhalinin tezliklə burada yaşaması üçün zəruri olan minimum infrastruktur layihələri həyata keçirilməlidir;
- Köçürmə və məskunlaşma məsələsi sürətləndirilməli, təhlükəsizlik təmin edilməlidir;
- Regional resurslara çıxış investorlar üçün açıq olmalıdır;
- 10 il müddətinə bölgəyə sərmayə qoyacaq şəxslər vergidən azad edilməlidir;
- İstehsal layihələri üçün lazımi avadanlıq, xammal, habelə müəyyən inventar idxalı zamanı gömrük rüsumlarından azad edilməlidir;
- Ölkə əhəmiyyətli layihələrin həyata keçirilməsi prosesi özəl müəssisələrlə birgə həyata keçirilməlidir;
- Dövlət büdcəsindən və dövlət fondlarından investorlar üçün xüsusi subsidiyalar ayrılmalıdır;
- Müəssisələrin tikintisi üçün əlverişli biznes mühiti formalaşmalıdır;
- Birbaşa xarici investisiyalar istiqamətində dövlət zəmanəti yaradılmalıdır;
- Bütün investorlar üçün bərabər imkanlar və təkliflər yaradılmalıdır;
- Hüquqi sığorta proseslərin təkmilləşdirilməlidir;

➢ Xarici kapital, xüsusilə valyuta əməliyyatlarına uyğun qanunvericilik hazırlanmalıdır (UNEC ekspert, 2020-2021. s.18).

İşğaldan azad edilmiş ərazilərin müasir geoloji vəziyyəti, iqlim şəraiti və potensial resursları nəzərə alınmaqla prioritet sahələrin müəyyənləşdirilməsi, qarşıda duran fəaliyyətlərin həyata keçirilməsi, mövcüd problemlərin həll edilməsi aşağıda sadalanan sahələrin hər birinin ayrı-ayrılıqda inkişaf etdirilməsi ilə mümkündür:

1) Turizm – İşğaldan azad edilmiş ərazilər Kiçik Qafqaz regionunun dağlarında yerləşir. Bu ərazilərin spesifik coğrafi potensial mövqeyə malik olması turizmin inkişafı üçün əhəmiyyətli bir təkan ola bilər. Əslində bu regionun turizm potensialından böyük gəlirlər əldə etmək mümkündür. Gəlirlər hətta bütövlükdə ölkənin turizm potensialından əldə edilən gəlirdən çox ola bilər. Bunun üçün tarixi yerlər, o cümlədən regionun təbii və ekoloji potensialının bərpası beynəlxalq turizm təşkilatları tərəfindən müəyyən edilməlidir. Hədəflərdən istifadə etməklə müasir turizm şəraiti formalaşmalıdır. Bölgədə müxtəlif müalicə əhəmiyyətli resusrların olması, zəngin təbii şərait turizmin müxtəlif şaxələri üçün vacibdir. Belə bol resursların mövcudluğu tibbi turizmin inkişafına da kömək etmiş olacaqdır. Ümumiyyətlə götürdükdə bu ərazilərdə mövcud turizm potensialı hər bir turizm növü üzrə inkişafa zəmin yaratmış olur. Həm təbii, həm də maddi-mədəni, tarixi zənginlik bu dilbər guşələri turistlər üçün cəlbedici edəcəkdir (https://president.az).

**Cədvəl 3: 2019-cu ilin sonuna Azərbaycan Respublikasının işğaldan azad edilmiş şəhər və rayonları üzrə dövlətin mühafizəsində olan daşınmaz tarixi-mədəniyyət abidələrinin əhəmiyyətinə görə bölgüsü**

| Şəhər və rayonlar | Dünya əhəmiyyətli | | Ölkə əhəmiyyətli | | | Yerli əhəmiyyətli | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | Arxeoloji | Memarlıq | Arxeoloji | Memarlıq | Bağ-park, monumental və xatirə abidələri | Arxeoloji | Memarlıq | Bağ-park, monumental və xatirə abidələri | Sənət abidələri |
| **Azərbaycan** | 80 | 21 | 1671 | 387 | 87 | 799 | 2678 | 136 | 177 |
| **Yuxarı Qarabağ iqtisadi rayonu-cəmi** | 8 | 4 | 161 | 93 | - | 14 | 292 | 16 | 1 |
| O cümlədən | | | | | | | | | |
| Cəbrayıl | 1 | 2 | 16 | - | - | 9 | 12 | 2 | 1 |
| Füzuli | 2 | - | 14 | 4 | - | - | 43 | 2 | - |
| Ağdam | 3 | 1 | 96 | 3 | - | 4 | 34 | 4 | - |
| Tərtər | 1 | - | 15 | - | - | - | - | - | - |
| Xocalı | 1 | - | 12 | 15 | - | - | - | - | - |
| Şuşa | - | 1 | 5 | 44 | - | - | 155 | 5 | - |
| Xocavənd | - | - | 3 | 27 | - | - | 40 | 1 | - |
| Xankəndi | - | - | - | - | - | - | 1 | 2 | - |
| **Kəlbəcər-Laçın iqtisadi rayonu-cəmi** | - | 2 | 27 | 27 | - | 9 | 97 | 7 | 16 |
| **O cümlədən** | | | | | | | | | |
| Kəlbəcər | - | 2 | 5 | 14 | - | 2 | 22 | 1 | 5 |
| Laçın | - | - | 8 | 3 | - | 3 | 47 | 3 | 9 |
| Qubadlı | - | - | 11 | 5 | - | - | 22 | 2 | 2 |
| Zəngilan | - | - | 3 | 5 | - | 4 | 6 | 1 | - |

**Mənbə:** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi internet saytı. https://www.stat.gov.az/

**Qeyd:** 07 iyul 2021-ci il tarixli Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə dəyişiklik edilmişdir.

2) Aqrar sahə - regionun əlverişli iqlim şəraiti və eləcə də kənd təsərrüfatına yararlı torpaqların mövcudluğu aqrar-sənaye kompleksinin, bitkiçiliyin, tərəvəzçiliyin olması, məhsulların istehsalına, habelə heyvandarlığın inkişafına

böyük təkan verəcəkdır. Burada olan sadəcə 7 rayonun əkin sahələrinin ümumi sahəsi 535 min hektardır. Bu baxımdan kənd təsərrüfatında sonuncu texnologiya vasitəsilə yerli tələbatın inkişafına, eyni zamanda ödənişin istiqamətləndirilməsinə töhfə verəcək məhsulların xarici ölkələrə ixrac dəyəri formalaşacaqdır.

**Cədvəl 4: Azərbaycanın işğal olunmuş keçmiş DQMV və ətraf rayonlarında kənd təsərrüfatı məhsulları istehsalı haqqında məlumat (1988-ci il)**

| İşğal olunmuş rayonlar | Bitkiçilik məhsulları | | | | Heyvandarlıq məhsulları | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | Taxıl (min ton) | Pambıq (min ton) | Üzüm (min ton) | Kartof (min ton) | Ət (min ton) | Süd (min ton) | Yumutra (min ədəd) | Yun (ton) | Barama (ton) |
| **DQMV** | 100,0 | - | 71,8 | 2765 | 10,2 | 36,5 | 11,1 | 477 | 89,0 |
| **Laçın** | 3,0 | - | - | 46,0 | 2,0 | 4,1 | - | 198 | - |
| **Kəlbəcər** | 1,0 | - | - | - | 1,0 | 3,1 | - | 86 | - |
| **Ağdam** | 30,1 | 19,0 | 1,2 | 5,0 | 2,7 | 12,6 | 2,3 | 297 | 379 |
| **Füzuli** | 31,9 | 1,5 | 100,1 | - | 1,5 | 6,8 | 1,1 | 128 | - |
| **Cəbrayıl** | 20,1 | - | 42,0 | 13,0 | 1,4 | 6,6 | - | 130 | 282 |
| **Qubadlı** | 6,7 | - | 2,9 | 55,0 | 0,6 | 3,3 | - | - | 14,4 |
| **Zəngilan** | 4,6 | - | 16,3 | 64,0 | 0 | 2,5 | - | 20 | 82,0 |
| **Cəmi:** | 179,4 | 20,5 | 324,3 | 2348 | 20,0 | 75,5 | 14,5 | 1360 | 846,4 |
| **Az. Res. %-lə** | 14,3 | 3,3 | 31,5 | 6,3 | 14,5 | 17,1 | 3,6 | 19,3 | 17,0 |

**Mənbə**:https://azerbaijan.az/related-information/126 .13.11.2021.

3) Mədən sənayesi – işğaldan azad edilmiş ərazilərin faydalı qazıntı yataqları həm zəngin, həm də müxtəlidir. Mədən və kimya sənayesi (pirit, soda külü, litoqrafik daş) xammal, qiymətli zərgərlik (jadeit, əqiq, obsidian, dəvə gözü, nefritoidlər) və zinyət daşları (yaşəm, mərmər oniks, felsit tuf) geniş yayılmışdır. Ehtiyatları on milyon kubmetrlərlə ölçülən mişar, üzlük və tikinti daşı, sement xammalı, büzücü maddələr, mineral boyalar, tikinti kərpicləri üçün xammal, beton aqreqatlar və yol tikintisi materialları xammal kimi təbii sənaye nümunələri ilə mövcuddur. Bu sənayenin inkişafı müxtəlif növ məhsulların hazırlanması üçün xüsusi zəmin yaradır.

4) Enerji hasilatı - regionda xüsusi əhəmiyyət kəsb edən bol sulu çaylar, eləcə də su anbarları mövcuddur. Burada tikilən xüsusi elektrik stansiyaları regionun, ölkənin enerji təchizatını, eləcə də enerji ixracının müəyyən payı hissəsini üzərinə götürmüş olacaqdır.

5) Mineral sular - bölgə eyni zamanda təbii və müalicəvi əhəmiyyət kəsb edən mineral sular ilə də zəngindir. Bu suların istehsalı, qablaşdırılması və böyük hissəsinin dünya bazarına ixracı ən yaxşı investisiyalardan biridir. Eyni zamanda bu sulardan istifadə müalicə sahəsində tibbi turizmin əhəmiyyətli dərəcədə inkişafına da təkan verəcək.

6) Baramaçılıq - Ümumiyyətlə, işğaldan azad edilmiş bölgənin cənub hissəsində yerləşən rayonların əsas fəaliyyət istiqamətləri nəzərə alındıqda, əsasən baramaçılığın xüsusi prioritet mənbə olacağı müəyyən edilmişdir. Bununla bağlı Zəngilan, Cəbrayıl, Qubadlı və Füzuli rayonlarında xüsusi barama və ipəkqurdunun yetişdirilməsi zamanla yan sahələrin inkişafına xüsusi təsir göstərəcəkdir (https://azerbaijan.az/ 15.11.2021).

7) Şərabçılıq - işğaldan əvvəl bu bölgələrdə xüsusi üzüm növü plantasiyalarının mövcudluğu, bu sahədə əkinlərin və əhalinin əmək vərdişlərinin olması şərabçılıq sahəsinin müntəzəm inkişafı üçün xüsusi zəmin yaradır. Bu baxımdan, işğaldan azad edilmiş ərazilərin bir çox rayonlarında şərab zavodlarının, üzüm bağlarının salınması və tikintisi iqtisadi cəhətdən vacibdir. Sənayenin bu növü üzrə illər əvvəl mövcud olan ixrac potensialının bərpa edilməsi qarşıda duran məqsədlər siyahısındadır.

8) Xalçaçılıq - Qarabağ xalçalarının unikallığı danılmaz faktdır. İşğaldan əvvəlki zamanlarda bu xalçalar dünyanın ən bahalı və keyfiyyətli xalçaları hesab edilirdi. Hətta Cəbrayıl xalçasının dünyada bazar qiyməti təxminən 150.000 ABŞ dolları civarında olmuşdur. Xalçaçılıq mədəniyyətinin və istehsalının davam etdirilməsi qazancın sonrakı mərhələlərində xüsusi gəlir gətirəcək sahələrdən hesab oluna bilər.

9) Logistika sektoru - Yeni Bakı-Naxçıvan-Türkiyə dəmir yolu xəttinin ölkə ərazisindən keçməsi Şərq-Qərb və Şimal-Cənub dəhlizinin kəsişməsinin mərkəzində Azərbaycanın olması deməkdir. İşğaldan azad olunmuş ərazilərdə tranzit yolların mövcudluğu, bölgədə tarixi İpək Yolunun bərpası, logistika və ticarət üzrə bu ərazilərin mühüm mərkəzə çevrilməsinə imkan yaradacaqdır. Bu kontekstdə yeni müqavilə qovşaqlarının, logistik mərkəzlərin yaradılması, hava

nəqliyyatının quraşdırılması və təmin edilməsi mühüm əhəmiyyət kəsb edir. Bu ərazilərdən bir neçə yerlərdə yeni hava limanlarının tikintisi bölgənin logistika dəhlizi rolunu artırmış olacaqdır (UNEC ekspert, 2020-2021. s.18).

Bu sahələrin inkişafı, müxtəlif müəssisələr və yeni investisiyalar cəlb etmək üçün dövlətdən bu istiqamətdə bir sıra strategiyaların həyata keçirilməsini tələb edir. Aparılan uğurlu siyasət nəticəsində hərbi əməliyyatlar bitəndən dərhal sonra yenidənqurma, bərpa və tikinti işləri başladılmışdır.

Ötən əsrin sonlarından başlayaraq ölkədə tuğyan edən siyasi məsələlər ərazilərimizin 20%-dən çoxunun işğalı ilə nəticələnmişdir. Bu işğalla barışmayan xalqımız hər zaman o ərazilərin həsrəti ilə yaşayırdı.

Uzun illərdən sonra müzəffər Azərbaycan ordusunun azad etdiyi ərazilərin bərpası hal-hazırda qarşıda duran ən vacib məsələlərdən biridir. Bərpa prosesi mövcud vəziyyətin və problemlərin tam təhlil olunması ilə mərhələli və planlı şəkildə təşkil olunmalıdır.

### 1.3. Müəssisələrin növləri, təşkilinin prinsipləri və əhəmiyyəti

İqtisadi inkişafın bütün mərhələlərində əsas halqa müəssisədir. Məhz müəssisədə məhsul istehsalı həyata keçirilir, işçi ilə istehsal vasitələri arasında birbaşa əlaqə yaranır. Müəssisə öz fəaliyyətini müstəqil şəkildə həyata keçirir, istehsal etdiyi məhsula, vergilər və digər icbari ödənişlər ödənildikdən sonra onun sərəncamında qalan mənfəətə sərəncam verir (Горфинкель В.Я., Куприянова Е.М.2008, s.233).

Bazar münasibətləri şəraitində müəssisə bütün iqtisadiyyatın əsasını təşkil edir, çünki məhz bu səviyyədə cəmiyyət üçün lazım olan məhsullar yaradılır, lazımi xidmətlər göstərilir.

Müəssisə milli iqtisadiyyatın istehsal sahəsinin məhsul istehsal edən və satan, sənaye işlərini yerinə yetirən və ya pullu xidmətlər göstərən müstəqil, təşkilati cəhətdən ayrıca təsərrüfat subyektidir. Müəssisənin konkret adı var - zavod, fabrik, kombayn, mədən, emalatxana və s. ola bilər.

İstənilən müəssisə hüquqi şəxsdir. O:

❖ Tam mühasibat uçotu və hesabat sisteminə;

❖ Müstəqil balansa;

❖ Hesablaşma və digər hesablara;

❖ Öz adı olan möhürə;

❖ Əmtəə nişanına (marka) malikdir.

Müəssisənin yaradılması və fəaliyyətinin əsas məqsədi (missiyası) istehsal olunan məhsulların (görülmüş işlərin, göstərilən xidmətlərin) istehlakçılara satılması yolu ilə mümkün olan maksimum mənfəəti əldə etməkdir, bunun əsasında əməyin, kollektiv və istehsal vasitələrinin sahibləri sosial və iqtisadi ehtiyacları təmin edilir.

Müəssisənin ümumi missiyası əsasında mülkiyyətçinin maraqları, kapitalın ölçüsü, müəssisə daxilindəki vəziyyət, xarici mühit ilə müəyyən edilən və aşağıdakı tələblərə cavab verməli olan ümumi korporativ məqsədlər formalaşdırılır və müəyyən edilir:

1. Konkret və ölçülə bilən;
2. Zaman yönümlü;
3. Əlçatan;
4. Qarşılıqlı dəstəklənən olmaq (Виленский А.2008, s.183).

Hər bir müəssisə çoxşaxəli fəaliyyətə malik mürəkkəb istehsal-təsərrüfat sistemidir. Əsas fəailiyyətlərə aid edilməli olan sahələr ən aydın şəkildə fərqləndirilməlidir:

1) Hərtərəfli bazar araşdırması (marketinq fəaliyyəti);

2) İnnovativ fəaliyyət (tədqiqat və təkmilləşdirmə, texnoloji, təşkilati, idarəetmə və digər yeniliklərin istehsalata tətbiqi);

3) İstehsal fəaliyyəti (məhsul istehsalı, işlərin görülməsi və xidmətlərin göstərilməsi, bazar tələbatına uyğun məhsul çeşidinin inkişafı);

4) Müəssisənin bazarda kommersiya fəaliyyəti(istehsal olunan məhsulların, xidmətlərin satışının təşkili və təşviqi, effektiv reklam);

5) İstehsalın maddi-texniki təminatı (xammal, material, komponentlərin tədarükü, bütün növ enerji, maşın, avadanlıq, qablaşdırma və s. ilə təminat);

6) Müəssisənin təsərrüfat fəaliyyəti (bütün növ planlaşdırma, qiymət, uçot və hesabat, əməyin təşkili və əməyinin ödənilməsi, təsərrüfat fəaliyyətinin təhlili və s.);

7) İstehsalat, texniki və istehlak məqsədləri üçün məhsulların satışdan sonrakı xidmət (istismar, zəmanət xidməti, təmir üçün ehtiyat hissələrinin verilməsi və s.);

8) Sosial fəaliyyət (əmək kollektivinin əmək və məişət şəraitinin müvafiq səviyyədə saxlanılması, müəssisənin sosial infrastrukturunun, o cümlədən özünün şəxsi yaşayış binalarının, yeməkxanalarının, müalicə-istirahət və məktəbəqədər uşaq müəssisələrinin, peşə məktəblərinin və s.) yaradılması (Волков О.И.2006, s. 89).

Bazar münasibətləri şəraitində sahibkar əsas fiqurdur. Sahibkar statusu müəssisənin dövlət qeydiyyatı yolu ilə əldə edilir. Bu halda sahibkarlıq fəaliyyətinin subyekti həm fərdi vətəndaş, həm də vətəndaşlar birliyi ola bilər.

Beləliklə, müəssisə sosial ehtiyacları ödəmək və mənfəət əldə etmək məqsədi ilə əmtəə istehsal etmək, iş görmək və xidmətlər göstərmək üçün sahibkar və ya sahibkarlar birliyi tərəfindən yaradılmış müstəqil təsərrüfat subyektidir (Грузинов В., Грибов В.2008, s.290).

Çox vaxt təsərrüfat dövriyyəsində müxtəlif fəaliyyət növləri ilə məşğul olan və iqtisadi müstəqilliyə malik təsərrüfat subyekti başa düşülən “firma” terminindən istifadə olunur. Firma bir müəssisənin sahibi və biznesini aparan bir təşkilatdır.

Müxtəlif növ müəssisələri sistemləşdirmək üçün aşağıdakı amillər ayırd edilir ki, bunlara görə müəssisələr qruplara bölünür (Бабич А.М., Павлова Л.Н.2006, s.104):

- Mülkiyyət növü;
- Sənaye mənsubiyyəti;
- Təşkilati-hüquqi forması;
- Müəssisənin ölçüsü;
- İstifadə olunan resurslar;
- Yer;
- Müəssisənin sahiblərinin vətəndaşlığı;
- İstehsal strukturu.

Mülkiyyət formalarına görə müəssisələr aşağıdakılara bölünür:

- Özəl müəssisələr. Tamamilə müstəqil müəssisələr, ya da birliklər və onların tərkib hissələri şəklində mövcud ola bilər.
- Qarışıq müəssisələr. Həm özəl, həm də dövlətin kapital payı olduğu müəssisələr buraya daxildir;
- Dövlət (o cümlədən bələdiyyə) kimi başa düşülən, kapitalın və idarəetmənin tamamilə dövlətə məxsus olduğu, dövlətin kapitalın böyük hissəsinə sahib olduğu və ya idarəetmədə həlledici rol oynadığı müəssisələr bu qrupa aid edilirlər.

Ölçüsünə görə müəssisələr iki parametrə - işçilərin sayına və istehsalın həcminə görə üç qrupa bölünürlər:

- Kiçik
- Orta
- Böyük.

Müəssisələr öz imkanlarını genişləndirmək və fəaliyyətlərini əlaqələndirmək üçün müxtəlif konsernlərə, trestlərə, holdinqlərə, sindikatlara, sahələrarası assosiasiyalara və s.çevrilə bilərlər.

- Konsern-elmi, texniki və sənaye inkişafı, investisiya, maliyyə, xarici iqtisadi və digər fəaliyyətləri, müəssisələr üçün özünütəsərrüfat xidmətlərinin könüllü birləşməsi funksiyalarını həyata keçirən firmaların böyük birliyidir.
- Trest-hüquqi və iqtisadi müstəqilliyini itirən müəssisələrin birlik formasıdır və idarəetmə idarə heyətinin və ya əsas müəssisənin əlində cəmləşir.
- Holdinq-digər firmalarla əlaqədar nəzarət və idarəetmə funksiyalarını həyata keçirmək məqsədi ilə onların nəzarət paketinə sahib olan şirkətdir.
- Sindikat-müəyyən dar məqsədə çatmaq üçün iki və ya daha çox sahibin və ya firmanın birliyidir.
- Maliyyə sənaye qrupları-istənilən ölkənin iqtisadiyyatında dominant mövqeyi tez-tez maliyyə sənaye qrupları adlandırılan güclü sənaye şirkətləri ilə təmsil olunan iri iqtisadi komplekslər tutur. Maliyyə sənaye qrupları birgə əlaqələndirilmiş fəaliyyətin həyata keçirilməsi məqsədilə yaradılan müəssisələrin, kredit-maliyyə təşkilatlarının və investisiya institutlarının iqtisadi birliyidir.

Kapitalın mülkiyyətinə görə:

- Milli;
- Xarici;
- Qarışıq.

Məsuliyyət dərəcəsinə görə:

- Tam məsuliyyətlə;
- Məhdud məsuliyyətlə.

Lakin bütün sosial, tibbi və ən əsası iqtisadi çətinliklərə, müharibənin çoxsaylı və müxtəlif maliyyə xərclərinə və onun vurduğu maddi ziyana baxmayaraq, Azərbaycan xalqı və dövləti təcavüzdən qorunaraq azad etdiyi torpaqları bərpa etmək üçün bütün səylərini ortaya qoyurlar. Bərpanın əsasını təşkil edən yeni müəssisələrin fəaliyyətə başlaması regionun dirçəldilməsinin hərəkətverici qüvvəsi olacaqdır (https://sfera.az/yeni-iqtisadi-rayonlarin-esas-gostericileri-erazi-ve-ehali-gostericileri/ 11.03.2022).

Bu iqtisadi cəhətdən çətin zaman kəsiyində regionun qısa müddət ərzində bərpa edilərək dirçəldilməsi, bir daha Azərbaycan dövləti üçün həqiqətlərin və tarixi-mədəni dəyərlərin üstünlüyünü nümayiş etdirir. İşğaldan azad edilmiş ərazilərin müəssisələri üzrə iqtisadi dəstək sisteminin təkmilləşdirilməsi məsələsi regionun təkcə tarixi-mədəni dəyəri ilə yanaşı, zəngin iqtisadi potensialının da mövcudluğu ilə bağlıdır.

Regionda yaradılacaq müəssisələr ümumilikdə ölkənin iqtisadiyyatına inteqrasiyası ilə yaranacaq iqtisadi dəyərlərin istər dövlətin, istərsə də özəl sektorun çəkdiyi bütün xərcləri nəinki üstələyəcək, hətta əminlik mənfəətdən danışmağa imkan verəcək.

İşğaldan azad edilmiş ərazilər Kiçik Qafqaz regionunun dağlarında yerləşir. Bu ərazilərin spesifik coğrafi potensial mövqeyə malik olması yenidənqurma və müəssisə təşkil edilməsi üçün əhəmiyyətli bir təkan ola bilər. Əslində bu regionun sənaye potensialından böyük gəlirlər əldə etmək mümkündür. Gəlirlər hətta bütövlükdə ölkənin dağ-mədən sənaye potensialından əldə edilən gəlirdən çox ola bilər. Bunun üçün regionun təbii və ekoloji potensialının bərpası beynəlxalq təşkilatları tərəfindən müəyyən edilməlidir. Hədəflərdən istifadə etməklə müasir sənaye regionu formalaşdırılmalıdır.

İşğaldan azad edilmiş ərazilərdə müəssisələrin təşkilinin sürətlənməsinə səbəb ola biləcək məsələ burasındadır ki, ilkin infrastruktur bərpa olunan kimi geri dönüş potensialı yüksək olan layihələrin ümumilikdə bərpa prosesinin bitməsini gözləmədən - kənd təsərrüfatı, turizm, mədənçıxarma, tikinti materiallarının istehsalı və üstəlik, yükdaşımaların həyata keçirilməsinə başlanılması mümkün olacaqdır.

Maliyyə iqtisadiyyatına emissiyalar pandemiya səbəbindən donmuş iqtisadi fəaliyyətin bütün rıçaqlarını tədricən işə salacaq və ixrac edilə bilən məhsulların həcmi artırılacaqdır. Üstəlik, vacib olan odur ki, bütün bu layihələr və müəssisələr təbii ki, qeyri-neft sektoruna aiddir, ona görə də, artıq bu il nəzəri olaraq, həm dövlət büdcəsinin gəlirlərində, həm də ÜDM-də onun xüsusi çəkisinin əhəmiyyətli dərəcədə artmasının şahidi olmalıyıq.

İşğaldan azad edilmiş ərazilərdə nəqliyyat əlaqələrinin bərpası, hava limanlarının salınması ticarət əlaqələrinə təkan verəcək və müəssisələrin təşkili imkanlarından tam istifadə üçün əlverişli şərait yaradacaq. Nəticədə Azərbaycan itirilmiş imkan və resurslardan istifadə edərək işğaldan azad edilmiş ərazilərin iqtisadiyyatdakı payını işğaldan əvvəlki səviyyəyə çatdıra biləcək (https://president.az. 28.02.2022).

İqtisadi inkişaf öz növbəsində 10 noyabr razılaşmasının tam icrasını, o cümlədən Ermənistan qoşunlarının Azərbaycan ərazilərindən tam çıxarılmasını nəzərdə tutan davamlı sülhün və Ermənistan və Azərbaycan arasında gələcək barışıq üçün açıq perspektivlərin qorunmasına töhfə verəcək.

Artıq Koordinasiya Qərargahı çərçivəsində fəaliyyət göstərən işçi qruplarının fəaliyyətini əks etdirən Strateji Fəaliyyət Planı var. Bundan başqa, xüsusi Dövlət Proqramı hazırlanır, onun hazırlanması yaxın vaxtlarda başa çatdırılacaq, onun bəndləri gələn ildən həyata keçirilir. "Azərbaycan-2030: Milli İnkişaf Prioritetləri" sənədi də var. Bu sənədlərdə göstərilən məqsəd və vəzifələrə uyğun olaraq, öz ata-baba yurdlarına qayıdacaq insanların Azərbaycan iqtisadiyyatına və regionun iqtisadiyyatına reinteqrasiyası istiqamətində tədbirlər davam etdiriləcək.

Bundan əlavə qeyd etmək olar ki, işğaldan azad edilən bəzi rayonların baş planları artıq təsdiqlənib. Bunlara:

- Ağdam şəhəri
- Füzuli şəhəri
- Cəbrayıl şəhəri
- Şuşa şəhərləri və bir sıra rayonlar üzrə ayrı-ayrı kəndlərin və qəsəbələrin planları daxildir.

Digər sahələrdə də bu işlər davam etdirilir. Çox güman ki, gələn il bu işlər yekunlaşacaq. Eyni zamanda, işğaldan azad edilmiş ərazilərində rayon və kəndlərin layihələndirilməsi, ərazilərin minalardan təmizlənməsi işləri aparılır (https://azerbaijan.az/related-information/126. 12.03.2022).

Yenidənqurma və müəssisələrin təşkili potensialının formalaşdırılması istiqamətində artıq müəyyən addımlar atılmışdır. Bərpa prosesində atılan ilk

addımlar yolların və magistral yolların tikintisi olmuşdur. Müharibə illərində başlanmış ilk nəqliyyat layihəsi işğaldan azad edilmiş ərazilərin Şimal-Şərq istiqamətində Tərtər şəhərini Suqovuşan və Talış kəndləri ilə birləşdirən yolların yenidən qurulması olmuşdur. Avtomobil yollarının ümumi uzunluğu 28,5 km-dir və bu magistralların yenidən qurulmasının birinci mərhələsi artıq başa çatıb. Növbəti mərhələdə Naftalan şəhərindən Talış kəndinə 22 km uzunluğunda avtomobil yollarının bərpası da nəzərdə tutulub.

Digər ən mühüm nəqliyyat layihəsi uzunluğu 101,5 km olan və paytaxt Bakıdan Şuşaya olan məsafəni təxminən 363 km-ə qədər azaldan Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yoludur. Tikinti üçün ilkin olaraq 29,4 milyon ABŞ dolları ayrılıb, bu yolun mövcudluğu istehsal potensialı yüksək olan regiona olan yerli sahibkarların marağın təmin olunması prosesinə yardım etmiş olacaqdır (https://azerbaijan.az/ 10.03.2022).

Füzuli ilə Şuşanı birləşdirən bu yolun son hissəsi Azərbaycan əsgərlərinin Azərbaycanın mədəniyyət mərkəzi olan Şuşa şəhərini azad etmək üçün istifadə etdikləri ərazidən keçdiyi üçün Azərbaycan üçün simvolik məna kəsb edir. Ona görə də Prezident İlham Əliyev onu “Zəfər yolu” adlandırdı.

İşğaldan azad edilmiş ərazilərin cənub hissəsində Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolu ilə yanaşı, Azərbaycan Horadiz-Zəngilan-Qubadlı-Laçın yolunun tikintisi planlaşdırılır. Həmçinin Horadizin Füzuli və Şuşa ilə dəmir yolu ilə birləşdirilməsi nəzərdə tutulur.

Hazırda bu layihələr planlaşdırma mərhələsindən artıq həyata keçirilmə mərhələsinə qədəm qoyulmuşdur. Bu layihələrin hər biri gələcəkdə işğaldan azad edilmiş ərazilərdə yaradılmış olacaq müəssisələrin ilkin infrastrukturunu təşkil etməkdədir.

Digər dəmir yolu layihələrinə Yevlax-Xankəndi dəmir yolunun bir hissəsi olan Bərdə-Ağdam dəmir yolu (104 km) daxildir. Artıq Bərdədən Ağdama qədər olan 45 kilometrlik hissənin tikintisinə başlanılıb və ilkin olaraq 2,94 milyon dollar vəsait ayrılıb. Horadiz-Ağbənd dəmir yolu xətti də bərpa olunacaq. Bu yol Zəngəzur dəhlizinin əsas komponentlərindən biridir.

Azərbaycan hökuməti avtomobil və dəmir yolları ilə yanaşı, işğaldan azad edilmiş ərazilərdə 3 hava limanı tikməyi də planlaşdırır. İlk hava limanı layihəsi hərbi əməliyyatlar bitəndən dərhal sonra təməli qoyulan Füzuli Beynəlxalq Hava Limanıdır. Hava limanının uçuş-enmə zolağının uzunluğu 2800 metrdir və bu il istifadəyə veriləcək (https://president.az. 28.02.2022).

Yeni hava limanı əcnəbilərin işğaldan azad edilmiş ərazilərə, xüsusilə Şuşaya səfərini asanlaşdıracaq. Füzuli-Şuşa avtomobil yolu Füzuli hava limanına birləşdiriləcək ki, bu da xarici qonaqların Şuşaya gediş-gəlişini asanlaşdıracaq. Laçın və Zəngilan rayonlarında da digər hava limanlarının tikintisi nəzərdə tutulur.

Azərbaycanın bərpa prosesində əsas məqsədlərindən biri işğaldan azad edilmiş ərazilərin enerji təhlükəsizliyini təmin etmək və "Yaşıl enerji zonası" yaratmaqdır. Beləliklə, bərpa olunan enerji mənbələrindən istifadəyə üstünlük veriləcək.

## 3.2. İşğaldan azad edilmiş ərazilərdə investisiya proseslərinin stimullaşdırılması mexanizmləri

İşğalından azad edilmiş Azərbaycan torpaqlarının bərpası ilə bağlı çoxdan gözlənilən layihələr indi qarşıdakı illərdə ölkənin sosial-iqtisadi inkişafının əsas diqqət mərkəzindədir. Təbii ki, bunlar kifayət qədər bahalı proqramlardır ki, bu da təkcə dövlətdən deyil, həm də özəl biznesdən milyardlarla dollar investisiya tələb edir. Unutmaq olmaz ki, hər bir investisiya layihəsi öz nəticəsini verməli və qazanc əldə etməlidir. İşğaldan azad edilmiş ərazilərdə olan layihələr bizim üçün mənəvi baxımdan nə qədər əziz olsa da, bu məsələ də istisna deyil.

Mütəxəssislər, nəinki yerli, həm də beynəlxalq ekspertlər əmin edirlər ki, işğaldan azad edilmiş ərazilərdə həyata keçirilməsi nəzərdə tutulan irimiqyaslı infrastruktur layihələri hələ ilk illərdə belə Azərbaycan iqtisadiyyatının yüksəlişini təmin edən amillərdən birinə çevriləcək.

Bildiyiniz kimi, 2021-ci ilin dövlət büdcəsində bu məqsədlər üçün 2,2 milyard manat və ya ÜDM-in 2,9 faizi nəzərdə tutulmuşdur və artıq bir sıra işlərə, xüsusən

də infrastrukturun bərpası ilə bağlı layihələrə start verilmişdir. Eyni zamanda, xərclərin artmasına və pandemiya ilə bağlı davam edən qeyri-müəyyənliyə baxmayaraq, beynəlxalq reytinq agentliyi "S&P Global Ratings" bu yaxınlarda Azərbaycanın reytinqini BB+ səviyyəsində təsdiq etməklə yanaşı, reytinqlər üzrə proqnozu da mənfidən sabitə dəyişib (https://report.az/ru 13.03.2022).

Bu müsbət dönüş məhz uzun illər ölkənin iqtisadi inkişafı üçün əsas risk hesab edilən Qarabağ münaqişəsinin həlli sayəsində baş vermişdi. İndi Azərbaycan işğaldan azad edilmiş əraziləri bütün iqtisadi potensialı ilə öz balansına qaytarmağa başladığı üçün risklər məsələsi həmişəlik öz həllini tapmış olmuşdur.

S&P ekspertləri bildiriblər ki, "stabil proqnoz Azərbaycan, Ermənistan və Rusiya arasında ümumilikdə Qarabağda atəşkəs razılaşmasına ümumilikdə riayət ediləcəyinə dair gözləntilərimizi əks etdirir ki, bu da müharibə ilə bağlı təhlükəsizlik, maliyyə sektoru və tədiyyə balansı risklərini azaltmağa kömək edəcək".

Rusiyanın "Qazprombank"ının (GPB) analitikləri də əmindirlər ki, S&P-nin proqnoza yenidən baxılması qərarını Qarabağdakı vəziyyətin nizamlanması asanlaşdırır, nəticədə bu regionda irimiqyaslı infrastruktur layihələri nəzərdə tutulur: "Əldə edilmiş razılaşmalar və onlara riayət edilməsi xarici likvidlik mövqeyi və Azərbaycan iqtisadiyyatının inkişafı üçün uzun sürən münaqişə zamanı yarana biləcək riskləri minimuma endirmişdir" (https://report.az/ru 13.03.2022).

Bundan əlavə, bu, həm də Azərbaycanda milli valyuta və makroiqtisadi sabitlik üçün risklərin azaldılmasına kömək etmiş olacaqdır. Bütün təhlillər işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən yeni layihələr sayəsində Azərbaycanda iqtisadi inkişafın yüksələcəyini, 2020-ci ildə pandemiya və hərbi əməliyyatlar nəticəsində ÜDM-in kəskin aşağı düşməsindən sonra bu göstəricinin ildə təxminən 4% həcmində sabitləşəcəyini deməyə əsas verir.

Cari il üçün ilkin investisiya proseslərinin stimullaşdırılması mexanizmləri üzrə hökumətin prioritetlərinə aşağıdakıları aid etmək olar:

- işğaldan azad edilmiş bölgələrdə turizm marşrutlarının inkişafı;
- aqrar sahədə layihələr;

- müasir suvarma sistemlərinin quraşdırılması;
- su elektrik stansiyalarının tikintisi imkanlarının öyrənilməsi.

Bu sahələrə investisiyalar ölkə üçün həm qeyri-neft ixracının artması, həm də idxalı əvəzləmə baxımından mühüm əhəmiyyət kəsb edəcək. Bu ərazilərə investisiyaların stimullaşdırılması üçün müxtəlif mexanizmlərdən, o cümlədən sənaye parkları və məhəllələrinə, aqro və texnoparklara və digər investisiyalardan təşviq alətləri kimi istifadə etmək olar (https://azertag.az/ru 14.03.2022).

Bu istiqamətdə artıq İnnovasiyalar Agentliyi Türkiyənin ən böyük sənaye bölgələrindən birində yerləşən və 130 texnologiya şirkətinə dəstək verən GOSB texnoparkı ilə memorandum imzalayaraq bu yolda ilk addımı atmışdı. Bu memorandum işğaldan azad edilmiş ərazilərdə Yüksək Texnologiyalar Parkının yaradılmasını nəzərdə tutur.

80 milyon əhalisi olan İrandan, eləcə də Naxçıvan vasitəsilə 83 milyonluq Türkiyə bazarına məhsul çatdırmaq imkanını nəzərə alsaq, potensial investorlar üçün işğaldan azad edilmiş ərazilər çox cəlbedici ola bilər.

Bundan əlavə, beynəlxalq və xarici maliyyə təşkilatları hərbi münaqişələr baş vermiş ölkələrə kredit verməyə kifayət qədər hazırdırlar. Kreditlərin cəlb ediciliyi və regionun potensialına müsbət perspektivlərindən biri də ondan ibarətdir ki, o, birbaşa hökumətə deyil, bilavasitə özəl layihələrə də verilə bilmiş ola bilər.

Artıq işğaldan azad edilmiş ərazilərdə mövcud potensiallar üzrə perspektivləri yüksək dəyərləndirən investorlar da var. Belə ki, yenidənqurma proqramında iştirak etmək niyyətində olan Macarıstan şirkətləri üçün 100 milyon ABŞ dolları dəyərində kredit xətti açan Macarıstanın EximBank-ı buna nümunədir. Bundan başqa, Macarıstan minatəmizləmə işləri üçün 25 min avro qrant da təklif edib. Böyük Britaniya da analoji yardım göstərməyə hazırdır. Türkiyə, Rusiya, İran və digər dost ölkələr işğaldan azad edilmiş ərazilərdə nəzərdə tutulan layihələrdə iştirak etməyə hazır olduqlarını bildiriblər. İstər dövlət səviyyəsində, istərsə də ayrı-ayrı özəl investorlar öz təşəbbüsləri ilə çıxış edirlər.

Bir sözlə, ikinci Qarabağ müharibəsində qələbənin qeyd olunmasından çox az zaman keçməsinə baxmayaraq, işğaldan azad edilmiş ərazilərlə bağlı Strateji

Fəaliyyət Planları hazırlanır, planlar üzrə yüksək sürətli fəaliyyətlər həyata keçirilir və hətta kənardan işgüzar təkliflər yağır. Vahid konsepsiya hazırlandıqdan və prioritet layihələrin konkret siyahısı müəyyən edildikdən, bərpa proseslərinin ilkin mərhələsi bitdikdən sonra investisiya təşəbbüslərinin əhatə dairəsi genişləndiriləcək.

İşğaldan azad edilmiş ərazilərdə investisiya cəlbediciliyinin bu qədər yüksək olduğunun səbəbini izah etmək üçün bu bölgəyə investisiya qoyuluşunun müsbət tərəflərini qeyd etmək lazımdır:

1. İşğaldan azad edilmiş ərazilərin potensialı üzrə planlaşdırılan sürətli iqtisadi artım;
2. Əlverişli coğrafi yerləşmə.
3. Yeni yaradılacaq müəssisələrdə rəqabətli istehsal xərcləri.
4. Ucuz və ixtisaslı işçi qüvvəsi.
5. Müxtəlif sektorlar üzrə tələbata cavab verə biləcək xidmət və istehsalın əl çatanlığı.

Əlbəttə ki, mövcud risklər əsasən də xarici investorları qorxutmaya bilməz. Lakin Azərbaycanda 1992-ci ildə qəbul edilmiş "Xarici İnvestisiyaların Mühafizəsi haqqında" Qanun beynəlxalq investorlar üçün tam hüquqi müdafiəyəyə malikdir. Qanun həmçinin həm xarici, həm də yerli investorlara bərabər münasibəti təmin edir, mənfəət, gəlir və digər vəsaitlərin müvafiq vergilər ödənildikdə investisiya fondlarına repatriasiyasına icazə verir. Xarici İnvestisiyaların Qorunması Qanunu müəyyən xüsusi hallar istisna olmaqla, xarici investorları milliləşdirmə və rekvizisiyadan da qoruyur. Azərbaycanda xarici şirkətlərə qarşı rəsmi milliləşdirmə və ya rekvizisiya halları olmasa da, mülkiyyətin milliləşdirilməsi parlamentin icazəsi ilə baş verə bilər (https://www.yeniazerbaycan.com/Iqtisadiyyat_e65621. 14.03.2022).

İşğaldan azad edilmiş ərazilərdə iqtisadiyyatı uğurla inkişaf etdirmək üçün əlverişli investisiya mühiti yaratmaq lazımdır. Əlverişli investisiya mühiti yaradılmalı, xarici investorları bölgənin iqtisadiyyatına sərmayə qoymağa cəlb edəcək güzəştli şərtlər təmin edilməlidir. İnvestisiyaların iqtisadiyyatın qeyri-neft

sektoruna yönəldilməsi üçün bu region münbit şəraitə malikdir, öz növbəsində belə tədbirlər qeyri-neft istiqamətinin ümumilikdə ölkə üzrə cəlbedici olmasına təşviq edəcək mühüm addımlardan olacaqdır, çünki bu gün Azərbaycanda xarici investisiyaların böyük hissəsi məhz neft-qaz sənayesinə yönəlib.

Əhəmiyyətli problemlərə baxmayaraq, Azərbaycanın investisiya cəlbediciliyi artmaqda davam edir. Son illər ölkə qlobal bazara daha yaxşı inteqrasiya etmək və xarici investisiyaları cəlb etmək üçün səylər göstərir.

Azərbaycan azad ticarət zonasının yaradılması ilə bağlı işə başlamalıdır. Üstəlik, Azərbaycanın artıq ideal ərazisi var. İşğaldan azad edilmiş ərazilərdə cəlbedici iqtisadi ab-hava yaratmaqla onu azad ticarət zonasına çevirmək olar.

Eyni zamanda, bu əraziyə sərmayə qoymaq və işləmək istəyən investorlar "vergi tətilləri" təmin edilməklə 5-10 il müddətinə bütün vergi və rüsumlardan azad etmək buranın iqtisadi cəlbediciliyini artıra biləcək addımlardandır. Həmçinin ilkin mərhələlərdə xarici sahibkarlar üçün infrastrukturun inkişafı ilə bağlı bütün xərcləri Azərbaycan tərəfi ödəməlidir. Bundan sonra işğaldan azad edilmiş ərazilərə qoyulan investisiyaların həcminin bir neçə dəfə artacağını proqnozlaşdırmaq olar (Rzayev Z.H. 2007, s. 84).

Artıq işğaldan azad edilmiş ərazilərin xarici investorlar üçün cəlbediciliyini artırmaq üçün lazımi tədbirlər görülür. Bu baxımdan, özəlləşdirmə birbaşa xarici investisiyaların buraya daxil olmasını təmin edən mühüm vasitələrdən biri hesab olunur.

Bundan əlavə, yerli istehsalın inkişafı da vəsait axınının başqa variantıdır. Bununla əlaqədar olaraq, Azərbaycan hökuməti neft və qaz gəlirlərinin daha da qeyri-neft sektoruna köçürülməsinə sadiqdir, çünki bu sektorun inkişafı Azərbaycanın idxaldan asılı olmamasına imkan verəcək.

Əlbəttə işğaldan azad edilmiş ərazilərdə investisiya fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsi həmin bölgənin inkişafının ən vacib elementlərindən biridir. Belə ki, investisiya fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsi deyildikdə ölkədə vahid iqtisadi, elmi-texniki və sosial siyasətin həyata keçirilməsi üçün kompleks tədbirlər sistemi başa düşülür. Bu tədbirlərin

maliyyələşdirilməsi respublika və yerli büdcələr və öz vəsaitləri hesabına həyata keçirilir (Mahmudov M., Mahmudova M, 2011, ).

Əsasən investisiya bölgənin sosial tələbatının ödənilməsinə, iqtisadiyyatın strateji istiqamətlərinin inkişafına yönəldilib. Ümumiyyətlə investisiyalar mülkiyyət formasından asılı olmayaraq, fəaliyyət göstərdikləri ölkənin qanunları ilə tənzimlənir.

Beləliklə, işğaldan azad edilmiş ərazilərdə investisiya proseslərinin stimullaşdırılması mexanizmləri hazırlanarkən, həm dövlətdə, həm də özəl sektorda əsas siyasət istiqamətləri müəyyən edilməlidir. Bununla əlaqədar olaraq, bərpa və yenidənqurma sektoruna xarici və daxili investisiyaların stimullaşdırılması və eyni zamanda, regionun inkişafı üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur (Rzayev Z.H. 2007, s. 80-85):

- investisiyaların coğrafi şəraitə uyğun olaraq rayonlar arasında bölüşdürülməsinin təmin edilməsi (investisiyaların rayonlar arasında bölgüsünün optimallaşdırılması);
- investisiya fəaliyyətinin sosial aspektinin artırılması, insan kapitalına nail olunması, infrastruktura investisiya qoyuluşunun prioritetliyi;
- kənd təsərrüfatı məhsulları istehsalçıları üçün vergi tətillərinin davam etdirilməsi, investisiya proqramı vasitəsilə kənd təsərrüfatı istehsalının strukturunun təkmilləşdirilməsinə köməklik;
- xarici ticarət rejiminin təkmilləşdirilməsi yolu ilə özəlləşdirilən müəssisələrin texnoloji cəhətdən modernləşdirilməsi üçün ölkədə müasir texnologiyaların tətbiqi üçün əlverişli vergi mühitinin yaradılması;
- vergi uçotu mexanizmləri vasitəsilə birbaşa xarici investisiyaların stimullaşdırılması;
- yüksək əlavə dəyərli sahələrə daxili investisiyalarla yanaşı birbaşa xarici investisiyaların cəlb edilməsi;
- restrukturizasiya prosesini davam etdirməklə yerli müəssisələrin investisiya cəlbediciliyinin artırılması;

- investisiyaların vergi tənzimlənməsi üzrə qanunvericilik bazasının daha da təkmilləşdirilməsi.

### 3.3. İşğaldan azad edilmiş ərazilərdə mövcud risklər üzrə müəssisələrin təşkili

Risk anlayışı iqtisadi ədəbiyyatlarda ikili kəmiyyət xarakteristikası kimi başa düşülür: "ehtimal – nəticələr (mümkün ola biləcək zərər)". Buna görə də, bu anlayışda risk bir fenomen deyil, bir ölçüdür. Beləliklə, riskin iki nəticəsi var:

- müəssisənin öz resurslarının bir hissəsini itirməsi ehtimalı (təhlükəsi);
- əhəmiyyətli fayda (gəlir) əldə etmək imkanı.

Risk öz ölçülməsi ilə, əsasən qiymət, faiz dərəcəsi və ya məzənnə kimi zamanla bu və ya digər kəmiyyət xarakteristikanın dəyişkənliyi ilə göstərilir. Bu, təbii olaraq ölçü deyil, fenomen olan qeyri-maliyyə riskləri ilə bağlı problemlərə gətirib çıxarır.

Risk problemi hər hansı bir müəssisənin biznes fəaliyyətində həyati vacib anlayışlardan biridir. Müəssisənin işgüzar fəaliyyəti qənaətbəxş mükafat gözləyərkən risklərin qəbul edilməsidir. İstənilən istehsalın işə salınması iqtisadi riskdir. Sahibkarlıq subyektləri öz biznesinin bütün sahələri və mərhələləri: istehsal prosesinin idarə edilməsi, marketinq, müqavilə, kadrlar, avadanlığın texniki xidməti və yenidən qurulması və yenilənməsi, məhsul və ya xidmətlərin tətbiqi və inkişafı üçün bütün imkanlar və istiqamətlər haqqında ətraflı və hərtərəfli biliyə malik olmalıdırlar (Бахрамов Ю.М., Глухов В.В. 2011. S 102).

Qeyri-sabitlik və sürətlə dəyişən situasiya şəraitində regionda və ya bazarda hər hansı bir şirkət rəqiblərin hərəkətlərinin və bazar şəraitindəki dəyişikliklərin bütün mümkün nəticələrini nəzərə almalıdır. Risk təhlili layihə iştirakçılarına mümkün itkilərdən qorunmaq üçün tədbirlər görməyə imkan verir.

Risk müəssisələrin idarəedilməsinin vacib xüsusiyyətlərindən biridir. Hər cür riskdən qaçmaq istəyən liderlər, müəssisəni durğunluğa məhkum edə bilər. Riskə hazır olmaq sahibkarın fəaliyyəti, yeniliyə meyllilik, artan intuisiya və məsuliyyətlə əlaqəli sabit xüsusiyyətidir.

Azərbaycanın iqtisadi tarixinə daha dərindən yanaşdıqda aydın olur ki, işğaldan azad edilmiş ərazilərin inkişafı milli iqtisadiyyatın formalaşmasının əsas mərhələləri ilə bərabər səviyyədədir. Təbii ki, işğaldan azad edilmiş ərazilər bizim xeyli daxili və xarici iqtisadi və siyasi səylər bahasına əldə etdiyimiz iqtisadi imkanların xəzinəsidir.

İndi dövlətin əsas vəzifəsi ölkənin işğaldan azad edilmiş hissəsinin vahid sosial-iqtisadi münasibətlər sisteminə ən sürətlə inteqrasiyasına nail olmaqdır. Biz nəinki bu rayonu ümumi inzibati sistemə daxil etməliyik, həm də ölkənin iqtisadi bazarını genişləndirməliyik. Bu yolda əsas tətik isə sahibkarlığın inkişafıdır.

Lakin sahibkarlıq fəaliyyətində istər yerli sahibkar üçün istərsə də xarici investorları qorxudan əsas məsələ regionda mövcud risklərlə bağlıdır. Aydın mövzudur ki, hərbi əməliyyatların bitməsinə, üç tərəfli razılığın əldə olunmasına baxmayaraq region hələ də yüksək riskə malik ərazilərdən hesab olunur. Bunun bir neçə səbəbləri vardır:

- ərazinin minalanma sahəsinin yüksək olması
- ekstrimist qüvvələrin mövcudluğu
- ekoloji cəhətdən ərazinin uzun illər terrora məruz qalması
- atom elektrik stansiyasının tullantıları ilə çirklənmə nəticəsində radiasiyanın yüksək olduğu ərazilərin mövcudluğu.

Bir sıra risklərin mövcudluğu biznes fəaliyyətini çətinləşdirsə də, işğaldan azad edilmiş ərazilərin yüksək potensialı, dövlət tərəfindən təminatların verilməsi sahibkarlara riskləri sığortalamağa zəmin yaradır.

İşğaldan azad edilmiş ərazilərdə müəssisələrin təşkili ilə bağlı risklər əvvəlcədən hər bir fəaliyyət istiqaməti üzrə qiymətləndirilməlidir. Ümumiyyətlə götürdükdə risk məhfumunun iqtisadi anlayışına nəzər yetirsək onu bir neçə istiqamət üzrə təsnifləşdirmək olar.

**Cədvəl 8: Müəssisələrin təşkili ilə bağlı risklər**

| Mühit sahəsi | Riskin faktorları |
|---|---|
| Siyasi | • Ölkədə siyasi qeyri-sabitliyin artması<br>• Sənaye müəssisələri üçün tələblərin sərtləşdirilməsi baxımından tənzimləyici təzyiq |
| İqtisadi | • Girişlər üçün artan qiymətlər<br>• Yeni məhsulların bazara çıxarılması perspektivləri ilə bağlı qeyri-müəyyənlik<br>• Bu növ məhsula tələbatın azalması |
| Sosial | • Əhalinin sosial fəallığının və hərəkətliliyinin azalması<br>• Demoqrafik dəyişikliklər |
| Texnoloji | • Bu növ məhsulun yeni texnologiyalardan asılılığının artması<br>• Müəssisə tərəfindən innovativ uyğunlaşmanın itirilməsi |
| Hüquqi | • Qanunvericilik bazasında dəyişikliklər<br>• Ticarət məhdudiyyətlərində dəyişikliklər<br>• Ekoloji qanunvericilikdə dəyişikliklər |
| Ətraf mühit | • Şirkətin məhsullarının satış yerlərində ekoloji vəziyyətin pisləşməsi |

**Mənbə:** Поскочинова О.Г. Проблемы реализации системных решений в области управления рисками предприятий / Санкт-Петербургский политехнический университет. СПб., 2013. 320 с.

Müəssisələrin təşkili ilə bağlı çox aşağı ehtimal hər hansı real məsrəfləri və əldə edilən nəticələri dəqiq müəyyən edir. İqtisadi fəaliyyətin təbiətinə görə qeyri-müəyyənlik yaranır. Qeyri-müəyyənliyin bir neçə səbəbləri vardır:

- Məlumatsızlıq
- Təsadüfilik
- Münaqişə

Məlumatsızlıq – regionlar, bazarlar haqqında biliklərin natamamlığıdır.

Təsadüfilik - eyni şəraitdə fərqli ola bilən hadisədir (avadanlığın sıradan çıxması, mallara tələbin dəyişməsi, məhsulların tədarükünün pozulması və s.) (Поскочинова О.Г. 201, s 205).

Şirkətin öhdəliklərinə qarşılıq aşağıdakı formalarda ola bilər:

- ❖ sifarişçi ilə podratçı arasında münaqişə,
- ❖ əmək münaqişəsi,
- ❖ təchizatçılarla müqavilə öhdəliklərinin pozulması ilə bağlı münaqişələr və s.

Müasir dövrdə ağıllı sahibkar qeyri-müəyyənliyin səbəbini qabaqcadan görməli və gözlənilməz halları, əks hərəkətləri aradan qaldırmaq üçün həll yolları tapmalı və onları effektiv idarə etməyi öyrənməlidir.

Özlüyündə işğaldan azad edilmiş ərazilərdə sahibkarlığın uğurlu inkişafı xüsusilə son 30 ildə milli iqtisadiyyatın əldə etdiyi nailiyyətlər üzərində qurulacaq. Tərəqqinin effektivliyi isə bir çox amillərdən asılıdır:

- ❖ dövlət xidmətlərinin keyfiyyətindən;
- ❖ mövcud institusional mühitdən;
- ❖ dövlət idarəçiliyi modelindən;
- ❖ vergitutma sistemindən;
- ❖ sosial-mədəni .

Bütün amillər nəzərə alınaraq uyğun konsepsiya və mexanizmlər hazırlamaq çox vacibdir. İstənilən halda, işğaldan azad edilmiş ərazilərdə biznesə dəstək sistemi elə qanunauyğunluqlara əsaslanmalıdır ki, sahibkarlıq fəaliyyəti ölkənin bütün regionlarının inkişafına müsbət təsir göstərsin. Bu həm də son nəticədə ölkənin ÜDM-nin formalaşmasına biznesin töhfəsini artıracaq. Ona görə də sahibkarlara dövlət dəstəyi sisteminin inkişafı ilə yanaşı, innovasiyaların tətbiqinə, məhsuldarlığın və əhalinin məşğulluğunun artırılmasına xidmət edəcək sağlam sahibkarlıq ekosisteminin yaradılmasının qayğısına qalmaq lazımdır (Литвиненко С.В., 2005, s 45).

İşğaldan azad edilmiş ərazilərin inkişafına təbii ki, hökumətin xüsusi münasibəti lazımdır. Məlum olduğu kimi, ölkənin azad edilmiş hissəsinin dirçəldilməsi üçün biznes və şirkətlər üçün genişləndirilmiş üstünlüklər mexanizmindən istifadə ediləcək, çünki bu ərazilərdə inkişafa uyğun olaraq qarşıya qoyulan məqsədlərə nail olunmasına məhz yerli və xarici investisiyaların axını təminat verir. Burada təsərrüfat subyektləri üçün üstünlüklərin və hər cür güzəştlərin olması çox aktualdır (https://media.az/society/1067844276/nalogovye-i-socialnye-lgoty-prizvany-stimulirovat-delovuyu-aktivnost-v-karabahe-foto/. 16.03.2022).

İşğaldan azad edilmiş ərazilərdə sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi, hansı formada olursa olsun, iqtisadi və ya digər bir növ risklərlə zəngindir. Əmtəə-

pul, bazar münasibətlərinin inkişafı ilə əlaqədar olaraq, sahibkar artan gözlənilməz vəziyyət və qeyri-sabit iqtisadi mühit şəraitində öz təsərrüfat fəaliyyətini həyata keçirməyə məcbur olur. Deməli, gözlənilən son nəticənin əldə edilməsində hər zaman qeyri-müəyyənlik yaranır və buna görə də risk artır, yəni uğursuzluq ehtimalı, gözlənilməz itkilər daim müəssisəsinin fəaliyyətinin ayrılmaz hissəsi olaraq qalır. Bu, xüsusilə işğaldan azad edilmiş ərazilərdə sahibkarlığın inkişafının ilkin mərhələlərində özünü göstərmiş olacaqdır.

Elmi iqtisadi tədqiqatların, eləcə də biznes praktikasının əhəmiyyətli hissəsi miqyasından və fəaliyyət xarakterindən asılı olmayaraq müəssisələrin üzləşməli olduğu risklərin daim artan roluna işarə edir.

Müəssisələr daim artan riskləri nəzərə almadıqda və onlardan öz mənfəətlərini əldə edə bilmədikdə, müəssisələr üçün liberal "iqtisadi davranış"ın təsirsiz və əks məhsuldar ola biləcəyini başa düşmək getdikcə daha çox təsir göstərir.

Bu gün işğaldan azad edilmiş ərazilərdə müşahidə olunan risklərin idarə edilməsi probleminə belə maraq və effektiv və məhsuldar kəşfi təmin edən ümumi qəbul edilmiş aspektin yaradılmasının şərtiliyi, açıqlama, qiymətləndirmə və risklərin idarə edilməsi getdikcə daha aydın görünür.

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

Dissertasiya işinin məzmununu Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin bərpası və müəssisələrin təşkilinin iqtisadi əsaslarının inkişafının nəzəri və metodoloji problemlərinin həlli yollarının axtarışını, sosial-iqtisadi inkişafın təhlilini və konkret nəticələrin əldə edilməsini və bu regionda bərpa və yenidənqurma işlərinin təşkilinin təkmilləşdirilməsi üzrə təkliflər müəyyən edir.

Bildiyimiz kimi, Ermənistan dövləti tərəfindən işğal olunmuş ərazilərimiz azad edildikdən sonra bərpa prosesi sürətlə başlanılmışdır. Mənfur düşmən illərdir ki, işğal altında olan ərazilərimizin infrastrukturunu dağıdıb, eləcə də torpaqlarımızı minalayıb. Bu səbəbdəndir ki, yeni müəssisələrin təşkil edilməsi kimi iqtisadi inkişaf layihələrinin icrasına torpaqların minalardan təmizlənməsi, yeni yollar, qaz, su, işıq, kommunikasiya kimi ümumi infrastrukturların bərpası başa çatdıqdan və yaşayış üçün əsas şərait yaradıldıqdan sonra başlanmalıdır.

Azad edilmiş regionda sənaye, su təchizatı, elektrik enerjisi, sənaye rekreasiya imkanları, qida sənayesi potensialı, faydalı qazıntılar, xammal və s. kimi imkanları qiymətləndirmək olar. Azərbaycan iqtisadiyyatının inkişafı və böyüməsi əhəmiyyətli dərəcədə səmərəli investisiya fəaliyyətindən asılıdır.

Tədqiqatın nəticələrinə əsasən belə qənaətə gəlmək olar ki, işğaldan azad olunmuş ərazilərinin bərpası və müəssisələrin təşkili istiqamətlərinin inkişafının sosial-iqtisadi səmərəliliyinə nail olmaq üçün dövlət bərpa fəaliyyətini motivasiya etməli, rəqabəti inkişaf etdirməli və innovasiya prosesini tarazlaşdırmalıdır. Bu, dinamik iqtisadi inkişaf səviyyəsini artırmaq imkanlarını təmin edir.

İşğaldan azad olunmuş ərazilərin təbiətinin zənginliyi və rəngarəngliyi bu regionun inkişafına geniş imkanlar yaradacaqdır.

Araşdırmalar göstərir ki, resurs potensialının formalaşmasının əsas mexanizmləri: dövlətin, əhalinin və sahibkarların gəlirləri və onlardan istifadə ilə müəyyən edilir. İşğaldan azad edilmiş ərazilərdə sahibkarlığın inkişafı, təkmilləşdirilməsi və stimullaşdırılması məqsədilə investisiyayönümlü sahələri, eləcə də regionda yeni məşğulluq sahələrinin yaranmasına səbəb olacaqdır.

Sosial rifahın yaxşılaşdırılmasında əhəmiyyətli rol oynayan bütün sahibkarlıq sahələrinin dəstəklənməsi məqsədi ilə yenidənqurma və bərpa işləri bitəndən sonra bu ərazilərin təbliğ olunması və inkişaf etdirilməsi üçün daim regionlarda fəaliyyətlər həyata keçirilməlidir.

İşğaldan azad olunmuş ərazilərin bərpası və müəssisələrin təşkilinin iqtisadi potensialının qiymətləndirilərək həyata keçirilməsi regionun inkişafına kömək etməsinə də töhfə vermiş olacaqdır. Beləliklə, bərpa və yenidənqurma prosesi bütövlükdə bu istiqamətdə xidmətlər göstərmək üçün fəaliyyətin səmərəliliyinin artmasına köməklik edəcəkdir.

İşğaldan azad olunmuş ərazilərin bərpası və müəssisələrin təşkilinin iqtisadi əsaslarının formalaşdırılması istiqamətlərinin işlənib hazırlanıb, həyata keçirilməsi üzrə aşağıdakı təklifləri vermək olar:

- İlk növbədə, işğaldan azad edilmiş ərazilərin bərpası və dirçəldilməsi məqsədlərinə cavab verən dövlətin investisiya siyasəti istiqamətləndirilməlidir;
- İşğaldan azad edilmiş ərazilərdə investisiya - innovativ layihələrin inkişafı və maliyyələşdirmə mənbələrinin müəyyənləşdirilməsi, maliyyə dəstəyi mexanizmlərinin alternativ xarakter daşıması təmin edilməlidir;
- İşğaldan azad edilmiş ərazilərdə iqtisadiyyatın müxtəlif sahələrinin dirçəldilməsi üçün məqsədli proqramlar və investisiyaların cəlb edilməsi konsepsiyasını hazırlamaq lazımdır;
- Regionda yeni müəssisələrin təşkili ilə bağlı mülkiyyət münasibətlərinin, mülkiyyətdən istifadə qaydalarının sahənin tələblərinə uyğun ciddi şəkildə tənzimlənməlidir;
- Regionun sosial-iqtisadi inkişafını təmin etmək və xarici investisiyaları cəlb etmək məqsədilə beynəlxalq əməkdaşlığı maksimum dərəcədə artırmaq və maliyyə dövriyyəsinə sərbəst resursların cəlb edilməsi çalışmaq lazımdır;
- Regionun mövcud potensiallarından istifadə səviyyəsinin artırılması üçün vergi və faiz güzəştlərindən istifadə edilməlidir;

• Regionda mövcud bərpa və yenidənqurma potensialına uyğun olaraq yerli və xarici investisiyaların təşviqi, stimullaşdırılması və həvəsləndirilməsi üçün kompleks yanaşmanın işlənib hazırlanması və məqsədyönlü tədbirlər görülməlidir;

• Regionun inkişaf etdirilməsi üçün çoxfunksiyalı iqtisadi mexanizmlərin, o cümlədən iqtisadi zonaların, klasterlərin, texnoparkların və aqrosənaye parklarının yaradılması imkanlarının öyrənilməsi və qiymətləndirilməsi, regiona daha çox yerli və xarici investisiyaların cəlb edilməsi üçün zəruri praktiki tədbirlərin görülməlidir;

• Milli dəyərlərin, adət və ənənələrin dövlət tərəfindən mühafizə edilərək inkişaf etdirilməsi;

• Mühüm obyektlərin mühafizəsi və bərpası məsələsini beynəlxalq təşkilatlar qarşısında qaldırmaq lazımdır.

Yuxarıda deyilənləri yekunlaşdıraraq qeyd etmək lazımdır ki, bərpa və yenidənqurma fəaliyyətinin təşkil edilməsi işğaldan azad olunmuş ərazilərin iqtisadiyyatın inkişafı üçün təsirli bir vasitədir. İşğaldan azad edilmiş ərazilərdə yeni və son texnoloji nailiyyətlərin tətbiq olunduğu müəssisələr inkişaf edə bilər və edilməlidir. Qoyulmuş məqsəd və vəzifələrə uyğun olaraq, müasir dövlətin sosial inkişafı üçün bu fəaliyyətlərin formalaşmasının nəzəri və metodoloji əsasları daha geniş öyrənilməlidir.

İşğaldan azad edilmiş ərazilər hər tərəfli iqtisadi yüksək potensiala malikdirlər. Potensialı yüksək olan bu rayonlarda öz potensialından istifadə etməyə imkan verən normal infrastruktur sisteminin yaradılması perspektivə uyğun fəaliyyətə imkan verəcək amillərdəndir.

Yeni müəssisələrin yaradılmasında mövcud perspektivlər və potensiallar nəzərə alınarsa işğaldan azad edilmiş ərazilərin Azərbaycanın böyük gələcəyinə tam inteqrasiyasını təmin etmək mühüm məsələlərdəndir.

Müharibənin qələbə ilə başa çatması məcburi köçkünlərə öz doğma yurdlarına qayıtmağa və orada yaşamağa, sahibkarlara isə istər daxili bazarda, istərsə də xarici bazarda yüksək rəqabət qabiliyyətliliyə malik məhsullar istehsal edən müəssisələr yaratmağa imkan vermiş oldu.

Burada müəssisələrin açılması və fəaliyyət göstərməsi üçün işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşma təmin edilməlidir. Bunun üçün bu ərazilər cəmiyyətin ən sağlam, ən müasir və firavan yaşayış mühitinə çevrilməli, davamlı məskunlaşmanın müasir prinsiplərinə əsaslanan rahat yaşayış mühiti yaradılmalıdır.

Beləliklə, aparılacaq müəssisələrin təşkili üzrə yenidənqurma və bərpa işləri iqtisadiyyatın səmərəliliyinə müsbət təsir göstərərək, iqtisadi artım tempinin yüksəldilməsinə kömək etmiş olacaqdır.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

### Azərbaycan dilində


1. 07 iyul 2021-ci il tarixli Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı.

2. Faiq İsmayılov., Azərbaycanın işğal olunmuş ərazilərindəki tarix və mədəniyyət abidələrinə vurulan zərər: Bakı, 2016.

3. Qafar Çaxmaqlı., Qarabağ işğaldan əvvəl...və sonra. Bakı. 2009.

4. Qarabağ Abidələri - Karabakh Monuments - Памятники Карабаха, Bakı, 2009.

5. Mahmudov M., Mahmudova M. Regionların sosial-iqtisadi inkişafının tənzimlənməsi. Bakı, İqtisad Universitetinin nəşriyyatı, 2011, 370 s.

6. Mirzəyev A., Eminov A., Süleymanov E., Qocayeva E. Müasir Azərbaycan iqtisadiyyatının əsasları. Bakı, 2019, 440 s.

7. Muradov Ş., Nadirov A., Ələsgərov A., Nuriyev Ə., Hüseynov T. Azərbaycan iqtisadiyyatı." Bakı: Elm, 2003, 344 s.

8. Rəşidov L., (09.12.2020). İşğaldan azad edilmiş rayonların iqtisadi potensialı və inkişaf perspektivləri. Bakı, "Xalq qəzeti", s. 9.

9. Rzayev Z.H. Vergi menecmenti. Dərslik. Bakı: 2007, s 324

10. UNEC ekspert. Qarabağ Azərbaycandır. №2. Bakı. 2020-2021.


### Rus dilində


1. Бахрамов Ю.М., Глухов В.В. Финансовый менеджмент. СПб.: Питер, 2011. 496 с.

2. Буряковский В. В. / Финансы предприятий. - 2005. - с.203

3. Веселова, Н.В. Предприятие, цели создания и принципы функционирования / Н.В. Веселова. - 2002. - с.34

4. Виленский А. Этапы развития малого бизнеса. Вопросы экономики . 2008 . №7 .

5. Волгин В.В. Индивидуальный предприниматель: Практическое

пособие. – 6-е изд., перераб. и доп. – М.: Дашков и К, 2006. – 497 с.

6. Волков О.И. Экономика предприятия. - М.: Инфра-М, 2006.-165 с.

7. Горфинкель В.Я., Куприянова Е.М. Экономика предприятия. - М: Инфра-М, 2008.-367 с.

8. Государственные и муниципальные финансы: Учебник для вузов. – М.: Финансы, ЮНИТИ, 2006. / Бабич А.М., Павлова Л.Н.

9. Грачев И. Развитие малого предпринимательства // Деньги и кредит . 2006 . №1 .

10. Грибов В.Д. Основы бизнеса: Учебное пособие. – М.: Финансы и статистика, 2006. – 160 с.

11. Грузинов В., Грибов В. Предпринимательство формы и методы организации предпринимательской деятельности // Экономика предприятия . М., 2008

12. Грузинов В.П., Грибов В.Д. Экономика предприятия: Учебное пособие для вузов.-М.:Финансы и статистика, 1998.- 208 с.

13. Егорова Н.Е. Малые предприятия: предпринимательские стратегии и кооперация / М.А. Маренный. – М.: Кооперация Спутник +, 2005. – 199 с.

14. Жилинский, С.З. Правовые основы предпринимательской деятельности / С.З. Жилинский // Курс лекций. - 2001. - с.35-81

15. Камаев В. Д. Экономика и бизнес. М., 1993.

16. Карлика, А.Е. Экономика предприятия / А.Е. Карлика, М.Л. Шухгальтер. 2004. - с.431

17. Литвиненко С.В. Технология фьюзинга. Киев: Витражная мастерская, 2005. 150 с.

18. Ложкин О.Б. Формула эффективности бизнеса. – М.: МГУП, 2006. – 150 с.

19. Поскочинова О.Г. Проблемы реализации системных решений в области управления рисками предприятий / Санкт-Петербургский политехнический университет. СПб., 2013. 320 с.

20. Радеев, В. Малый бизнес и проблемы деловой этики: надежды и реальность / В. Радеев // Вопросы экономики. - 2001, №7. - с.72-82

21. Рыбак, О. Малый бизнес в большой статистике / О. Рыбак // «Экономическая газета». -№20, 2003

## İnternet resursları

1. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi – Prezident Kitabxanası (2021). Azərbaycan – Ermənistan münaqişəsi; https://files.preslib.az/projects/azerbaijan/gl8.pdf

2. Azərbaycan Respublikası Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin Azərbaycan xalqına müraciətləri (27.09.2020-ci il tarixindən etibarən); https://aznotary.az

3. Heydər Əliyev Fondunun təşkilatçılığı yaradılan “Azərbaycan” portalının rəsmi internet resursu. https://azerbaijan.az/

4. https://azerbaijan.az/related-information/126

5. http://www.azerbaijan-news.az/view-202021/ilham-eliyev-qarabagi-azerbaycanin-en-inkisaf-etmis-mekanina-cevirecek

6. https://president.az

7. http://www.stat.gov.az

8. https://www.virtualkarabakh.az

9. https://www.karabakh.center/az

10. http://www.xocalininsesi.info/

11. https://modern.az/az/news/159720/isgalneticesinde-azerbaycana-deymis-ziyanaciqlandi-818-milyard-880-milyon-dollar

12. https://apa.az/ru/oficialniye-novosti/ekonomiceskoe-razvitie-na-osvobozdennyx-territoriyax-budet-uskoreno-rasporyazenie-464489

13. https://science.gov.az/news/open/16136

14. https://sfera.az/yeni-iqtisadi-rayonlarin-esas-gostericileri-erazi-ve-ehali-gostericileri/

15. https://media.az/society/1067844276/nalogovye-i-socialnye-lgoty-prizvany-stimulirovat-delovuyu-aktivnost-v-karabahe-foto/.

16. https://xalqqazeti.com/az/news/73571

17. https://vzglyad.az/news

18. https://story.karabakh.center/ru/ekotsid-v-karabakhe

19. Порядок создания нового предприятия//Экономика предприятия, электронный.учебник: http://www.businesscom.biz/biblio/ebooks/economics/7.html

# Cədvəllərin siyahısı

**Cədvəl 1:** 2021-ci ilin əvvəlinə işğaldan azad edilmiş iqtisadi və inzibati rayonlarının ərazisi və əhalisi....14

**Cədvəl 2:** Uzun illər erməni işğalı nəticəsində dilbər guşələrimizdə dağıdılan obyektlərin statistikası....15

**Cədvəl 3:** 2019-cu ilin sonuna Azərbaycan Respublikasının işğaldan azad edilmiş şəhər və rayonları üzrə dövlətin mühafizəsində olan daşınmaz tarixi-mədəniyyət abidələrinin əhəmiyyətinə görə bölgüsü....21

**Cədvəl 4:** Azərbaycanın işğal olunmuş keçmiş DQMV və ətraf rayonlarında kənd təsərrüfatı məhsulları istehsalı haqqında məlumat (1988-ci il)....22

**Cədvəl 5:** Yeni müəssisələrin təşkili formaları....35

**Cədvəl 6:** Dağlıq Qarabağ Muxtar Vilayətində kənd təsərrüfatı üzrə mövcud müəssisələrin sayı....40

**Cədvəl 7:** SSRİ dövründə Dağlıq Qarabağ Muxtar Vilayətində mövcud müəssisələrin istehsal etdiyi məhsulların miqdarı və onların ümumi Azərbaycan istehsalındakı faizlə payı....41

**Cədvəl 8:** Müəssisələrin təşkili ilə bağlı risklər....63